www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 iyul 2015-ci il Bazar ertəsi № 161 (6189) Qiyməti 40 qəpik

**Xəbər**

## Ali məktəbə girə bilməyən nişanlı qız özünü asdı

yazısı səh.14-də

**Gündəm**

### Xaləddin İsgəndərovun oğlu Binəqədidə necə "ikinci adam" olub?



Rayon İcra Hakimiyyətinin başçısı övladına və digər qohumlarına lüks otaqlar verib...

yazısı səh.6-da

### Bir həftə öncə iki erməni öldürən şəhidimizin həyat hekayəsi

yazısı səh.3-də

*Ekspert:*

### "Türkiyədən sonra hədəf Azərbaycan yox, İran ola bilər..."

yazısı səh.11-də

### Ermənistan həmsədrlərin Bakı danışıqlarına atəşlə cavab verdi

yazısı səh.9-da

### Döyülən sabiq cəbhəçi qanunsuzluqdan şikayətlənir

yazısı səh.6-da

### Deputat Fərhad Qəribov sürücülərin pulunu mənimsəyib

yazısı səh.12-də

### "Kitayski Antalya"da bir neçə saat...

Əməkdaşımız Nabranın ən populyar istirahət mərkəzlərində gördüklərindən yazır

yazısı səh.13-də

### Yaxşı işi də pisliyə çevrilən icra başçısı

yazısı səh.10-da

### Təhsil eksperti ləğv edilmiş universitet filiallarından danışdı

yazısı səh.2-də

### DÇ-2018-də millimizin rəqibləri məlum oldu

yazısı səh.15-də

### Əsəbisinizsə, bu qidalardan yeməyi unutmayın!

yazısı səh.12-də

## Münaqişə ətrafındakı situasiyada təhlükəli dönüş

# "QARABAĞ DANIŞIQLARI"NA GENERALLAR QOŞULUR

Kreml və İrəvan Bakı əleyhinə yeni anlaşma içində; Putinin kəşfiyyat generallarını Ermənistana yollamasının sirri; KTMT baş katibi Bordyujadan bir gün sonra QRU başçısının da İrəvana getməsi təsadüfdümü? Rusiya "bir güllə ilə 3 dovşan" hədəfləyib...



yazısı səh.8-də

## Yanğınlarla bağlı istintaq bitir: məmurlar təlaşda

Abid Şərifov Binəqədidə və Xətaidə yanan binalarla bağlı istintaqın yaxın 10 gündə yekunlaşacağını dedi; həbs edilənlər məsuliyyətin yalnız onlara "yüklənməsi" ilə razılaşmırlar...

yazısı səh.5-də



*Vahid Əhmədov:*

### "AZAL-da qiymətlər 40-50 faiz aşağı salınmalıdır"

yazısı səh.7-də



### Pənah Hüseyn partiya sədri seçilməsindən və gündəmin əsas məsələlərindən danışdı

yazısı səh.4-də



### Əli Kərimlinin "profil oğruları" yaxalandı

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 161 (6189) 27 iyul 2015



# HDP-li deputat PKK-dan silah-sursat alarkən görüntüləndi

## HDP "bizi erkən seçkidə vurmaq istəyirsiz" iddiasını irəli sürdü

**AKP-yə yaxınlığı ilə tanınan "Axşam" qəzeti HDP-li millət vəkillərinin PKK ilə işbirliyini təsdiq edən şəkil və xəbər yayıb. Xəbərdə bildirilir ki, quzey İraqdan PKK-nın Suruç bölməsinə göndərilən çoxsaylı silah-sursatı HDP-li millət vəkili Faysal Sarıyıldız qəbul edib.**

Qəzet faktı HDP-nin PKK-nın siyasi qanadı olmasının sübutu kimi təqdim edib. Xəbərə əlavə edilən şəkildə Sarıyıldızın silahları təslim alma anı görüntülənib.

Hakimiyyətə yaxın qəzetin bu haqda xəbəri HDP-də etirazlarla qarşılanıb. HDP həmsədri Selaheddin Demirtaş twitter üzərindən açıqlama verərək xəbərin bir cümləsinin belə doğru olmadığını deyib: "İndi Havadan, qurudan və media üzərindən yürüdülən hücumların tək məqsədi erkən seçkidə HDP-ni vurmaqdır. Ancaq bəsit bir işi də görə bilmək qabiliyyətiniz yoxdur. Sizi özbaşına buraxsaq belə, özünüzü bitirəcəksiniz".

Türkiyə mediası yazır ki, sözügedən xəbər HDP-nin PKK ilə yaxınlığını sübut edən ilk xəbər deyil. Son günlər 7 iyun seçkisində Türkiyə Böyük Millət Məclisinə seçilən HDP-lilərin PKK ilə təmasları artıb. Hətta bir sıra deputatlar bu təmasları tərəflər arasında dialoq yaratmaq cəhdi kimi dəyərləndirməkdən çəkinmir.

❑ Aygün MURADXANLI

# Obama Keniyadan Efiopiyaya yollanacaq



**ABŞ prezidenti Barak Obama Keniyaya səfərinin sonunda etdiyi çıxışında ölkənin əldə etdiyi nailiyyətləri alqışlayaraq qarşıda duran sınaqları da qeyd edib. "Report" BBC-yə istinadən xəbər verir ki, Obamanın təbirincə, Keniya son onilliklər ərzində iqtisadi və siyasi cəhətdən xeyli irəliləyib. Eyni zamanda ABŞ prezidenti xəbərdarlıq edib ki, korrupsiya, terrorçuluq, etnik ziddiyyətlər, tayfabazlıq, yerliçilik kimi hallar ölkənin gələcəyi üçün təhlükə kəsb edə bilər.**

Obamanın Keniyaya səfəri cümə günü başlayıb. Bu, onun ata yurduna prezident qismində ilk səfəridir. Keniya prezidenti ilə danışıqlardan sonra hər iki lider terrora qarşı mübarizədə ölkələrinin birgə olduğunu qeyd ediblər.

Bazar günü prezident Obama Keniyadan Efiopiyaya yollanacaq. Barak Obama Efiopiyaya rəsmi səfərə gələn ilk ABŞ prezidenti olacaq.

Çərşənbə axşamı Efiopiyada Afrika Birliyinin sammiti keçiriləcək. Obama həmin sammitdə çıxış edəcək ilk ABŞ prezidenti olacaq.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Ağ Ev: NATO tərəfdaşımız Türkiyəni dəstəkləyirik

**"PKK-nın terror hücumlarına qarşı NATO müttəfiqimiz Türkiyənin özünümüdafiə haqqına saygı duyuruq". Bu sözlər ABŞ-ın Milli Təhlükəsizlik Şurasının sözçüsü Alistar Baskeyin iyulun 25-də yayılan yazılı açıqlamasındandır.**

Sənəddə Türkiyənin PKK terror təşkilatına qarşı hücumları təqdir edilir və Türkiyənin hərəkətləri regionun təhlükəsizliyi açısından yüksək qiymətləndirilir: "ABŞ-ın terror hörgütləri siyahısında olan PKK terroru dayandıraraq Türkiyə hökuməti ilə dialoqa başlamalıdır".

Baskey bildirir ki, bütün hallarda dialoq bölgəni böhrandan çıxarmaq üçün daha optimal yoldur: "Gərginliyin azalması və iki tərəfin də qalıcı və uzunmüddətli barış əldə etməsi üçün çözüm süreci davam etdirilməlidir. Zorakılıq uzunmüddətli təhlükəsizlik və sabitlik açısından Türkiyə vətəndaşlarının xeyrinə deyil".



Yada salaq ki, Türkiyə Silahlı Qüvvələri iyulun 24-25-də Quzey İraqda PKK və Suriyada İŞİD terror təşkilatlarına qarşı havadan və qurudan əməliyyat keçirib. 25-i gecə saatlarından başlayan əməliyyat günortaya qədər davam edib. Quzey İraqdakı PKK qüvvələrinə qarşı Diyarbəkirdəki hərbi hava limanından, İncirlikdən, Batman hava limanından 50 ədəd F-16, Malatya hərbi hava limanından 25 ədəd F4-2020 savaş uçağı havaya qaldırılır. Türkiyə mediası yazır ki, PKK çox sayda itki verib, PKK liderlərindən biri öldürülüb. Bu əməliyyatın ardınca quru qoşunlarına aid 40 km mənzilli 155 mm-lik toplarla İŞİD-ın əraziləri hədəfə alınıb. Eyni zamanda Türkiyə-İraq sərhədindəki toplarla PKK bazalarını bombalayıb.

❑ Aygün MURADXANLI

# İrandan Türkiyə-İŞİD qarşıdurması haqda açıqlama

Türkiyənin Suriyada İŞİD-ə qarşı əməliyyatını dəyərləndirən İran xarici işlər nazirinin müşaviri Mərziyə Əfham əməliyyatların beynəlxalq hüququn təməl qanunlarına uyğun edilməsi gərəkliyini bildirib.

Musavat.com-un məlumatına görə, M. Əfham deyib: "Terrorizmə qarşı təsirli bir mübarizə üçün dövlətlərin çox ölçülü əməkdaşlıq etməsi lazımdır. Ancaq bu eyni zamanda milli suverenliyə hörmət göstərilərək beynəlxalq hüququn təməl qanunlarına uyğun olaraq edilməlidir".

Müşavir həmçinin qeyd edib ki, dövlətlərin milli suverenliyini zəiflədəcək hər bir hücum, terror qruplarının vəhşi cinayətlərini irəlilətməyə xidmət edir. XİN rəsmisi Tehranın terrorizmlə mübarizə üçün beynəlxalq əməkdaşlıq etməsini müsbət qarşıladığını da ifadə edib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

# Təbriz və Kərəcdə "Azadlıq" tələbləri

**Azərbaycan milli hərəkatının fəalları tanınmış azərbaycanlı milli-mədəni fəal Abbas Lisaninin azad edilməsini tələb edir. Güneydən verilən məlumata görə, Təbriz və Kərəc şəhərlərində bununla bağlı şüarlar yazılıb.**



Divarlar üzərində "Abbas Lisani rəhbərimizə azadlıq", "Haray, haray mən türkəm" və s. kimi şüar yazılıb. Şüarlara şəhərin müxtəlif məntəqələrində rast gəlmək mümkündür. GünAz.TV xəbər verir ki, tanınmış azərbaycanlı milli-mədəni fəal A.Lisani iyulun 22-də Ərdəbil şəhərində rejimin təhlükəsizlik qüvvələri tərəfindən saxlanılıb. 1 illik həbs cəzasını çəkmək üçün həbs edilən milli-mədəni fəal zindanın 7-ci bölümünə salınıb. 7-ci bölüm narkomanlar və cinayət işləri ittihamı ilə həbs edilən məhbuslara aiddir və bu bölümdə məhbusların saxlanma şəraiti olduqca ağırdır.

Xatırladaq ki, adını çəkdiyimiz milli-mədəni fəal aktiv mədəni fəaliyyətləri ilə seçilən fəallardan biridir. O, Babək Qalası, Urmu Gölü etirazları, türkcə dərgilərin nəşr edilib və yayılması, Səttarxanın məzarı üstü mərasimi və digər yığıncaqlarda aktiv iştirakçılardan olub və bu kimi fəaliyyətlərinə görə uzun illərdir İran təhlükəsizlik qüvvələri tərəfindən dəfələrlə tutuqlanıb və müxtəlif təzyiqlərə məruz qalıb. Cənab Lisani Azərbaycanın demokratik və milli hüquqları uğrunda apardığı mübarizəyə görə uzun illər məhbus həyatı yaşayıb. Ötən illərdə Beynəlxalq Əfv Təşkilatı, məhbusların hüquqlarının müdafiə qurumu və müxtəlif insan haqları təşkilatları A.Lisani ilə bağlı bəyanatlar yayıb və azərbaycanlı fəalın vəziyyəti ilə bağlı öz nigaranlıqlarını bildiriblər.

❑ Cavid TURAN

# Tibb dünyasını şoka salan hadisə

**ABŞ-ın Çikaqo şəhərində yerləşən Loyola Universitetinin Tibb Mərkəzində həkimlərin əməliyyat zamanı bir insandan çıxardıqları ürək tam 25 dəqiqə döyünüb.**

Universitetdən verilən məlumata görə, təxminən 10 ildir dərman asılılığı olduğu üçün ürəyi iflas edən xəstəyə Tibb Mərkəzində ürək nəql edilib. Fəaliyyətini itirmiş ürək xəstədən çıxarıldıqdan sonra 25 dəqiqə döyünüb. Hadisədən heyrətlənən cərrahlar həmin anları lentə alıb.

Mütəxəssislər orqanizmdən çıxarılan bir ürəyin kənarda ən çox 1 dəqiqə döyündüyünü deyir. Cərrahlar normadan üç dəfə böyük olan ürəyi xəstəyə nəql etdikdən sonra "qəribə hərəkətlər" etmə ehtimalının da olduğunu vurğulayıb.

# Təhsil eksperti ləğv edilmiş universitet filiallarından danışdı

**Etibar Əliyev:** "Ölkə prezidentinin bu fərmanı göstərdi ki..."

**Bu günlərdə prezident İlham Əliyevin fərmanı ilə Azərbaycan Müəllimlər İnstitutunun Mingəçevir, Salyan və Sumqayıt filialları ləğv edildi. Bununla bağlı musavat.com təhsil eksperti, fəlsəfə doktoru Etibar Əliyevin mövqeyini öyrənib.**

Etibar Əliyev bildirib ki, pedaqoji kadrların çatışmaması nəzərə alınaraq 2000-ci ildə Müəllimlər İnstitutunun bir neçə filialı yaradılmışdı: "Ancaq sonradan bu filialların bir neçəsi, xüsusilə prezidentin fərmanı ilə ləğv olunan Mingəçevir, Salayan və Sumqayıt filialları həqiqətən də özlərini doğrultmadılar. Mətbuatdan da bəllidir ki, Müəllimlər İnstitutunun rektoru, millət vəkili Aqiyə Naxçıvanlı bu filiallarda baş verən neqativ halları, pedaqoji kadraların hazırlanmasında yol verilən qüsurları etiraf edirdi. Yeni rektor bu filialların bağlanmasının tərəfdarı idi. Yəqin ki, filialların ləğv olunmasında onun təklifləri nəzərə alınıb. Təhsil eksperti kimi Müəllimlər İnstitutunda keçirilən bir konfransa dəvət olunmuşdum. Fürsətdən istifadə edib, bu ali məktəbin işi ilə tanış oldum. Qənaətim bundan ibarət oldu ki, belə bir institutun olduğu halda filiallara heç bir ehtiyac qalmır. Həqiqətən də müəllimlər institutunda təhsil mühiti, professor-müəllim heyətinin tərkibi, şəffaflıq, aparılan tədqiqat və monitorinqlər onu göstərirdi ki, bu ali məktəb inkişaf yolundadır və pedaqoji kadrların hazırlanmasında öz sözünü deyir. Əslində filiallarda baş verən neqativ hallar artıq pedaqoji kadrlar hazırlamaq ənənəsi formalaşmış bu ali məktəbin nüfuzuna da xələl gətirirdi".

Ekspert bildirib ki, ölkə prezidentinin bu fərmanı göstərdi ki, ali məktəb rəhbərləri rəhbərlik etdikləri ali məktəblərdə təhsilin keyfiyyətinə diqqət etməli, neqativ halların aradan qaldırılmasında maraqlı olmalıdırlar: "Bununla yanaşı prezidentin sərəncamı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Mingəçevir Politexnik İnstitutunun bazasında ali təhsilin bütün səviyyələri üzrə kadr hazırlığını həyata keçirən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Mingəçevir Dövlət Universitetinin yaradılması da müsbət qiymətləndirilməlidir.

Bu univesitet bölgəni müxtəlif ixtisaslar üzrə mütəxəssislərlə təmin olunmasına yardımçı olacaq. Fikrimcə, yeni yaradılmış bu ali məktəbdə təbiət və texniki elmlər üzrə mütəxəssislərin hazırlanmasına daha çox üstünlük verilməlidir. Çünki fəaliyyət göstərən ali məktəblərimizdə humanitar sahədə mütəxəssis hazırlığı kifayət qədərdir".

❑ RÖYA



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən

YENİ MÜSAVAT
N 161 (6189) 27 iyul 2015

**Xəbər verildiyi kimi, iyulun 24-də günorta saatlarında erməni silahlı qüvvələri Gədəbəy rayonunun İvanovka kəndindən 12 kilometr ərazidə yerləşən Çiçəkli yaylağındakı hərbi hissəmizə hücum ediblər. Döyüş nəticəsində 5 itki verib geri çəkilən ermənilər müddətdən artıq hərbi xidmət keçmiş (MAXE) sərrast atıcı Fətəliyev Eldar Səxavət oğlunu şəhid ediblər.**



# Bir həftə öncə iki erməni öldürən şəhidimizin həyat hekayəsi

## Fətəliyevlər ailəsi oğlanları ilə qürur duyurlar: "Valideynləri olaraq həyatımız məhv oldu, amma bilirik ki, Vətən üçün şəhid oldu..."



Şəhid hərbiçimiz iyulun 25-də doğulduğu İvanovka kəndinin qəbiristanlığında torpağa tapşırılıb. Axşam saatlarında mərhumun ailəsinə, yaxınlarına başsağlığı vermək üçün yaşadıqları ünvana yollandıq. Hava qaralmasına baxmayaraq, çoxlu sayda insan var idi. Hər kəs şəhid hərbiçimizin qəhrəmanlığından danışırdı.

Mərhumun ailəsi üzgün idi. E.Fətəliyevin atası Səxavət Fətəliyevin oğlu ilə bağlı fikirlərini ala bilmədik. Ata, sadəcə, oğlunun ölümü ilə sözlərinin bitdiyini söylədi.

Şəhid hərbiçimizin anası Nazan Fətəliyeva ilə söhbət etdik. Ana göz yaşları ilə hisslərini bizə belə anlatdı: "...Bir həftə öncə sevinə-sevinə gəlib dedi ki, iki erməni hərbçisi vurmuşam, şəhid insanlarımızın azacıq da olsa, qisaslarını almışam. Çox ağıllı oğul idi. Hamı deyirdi ki, oğlunuz çox ağıllıdır. Bir adam ondan indiyə qədər inciməyib. Kaş getməyinə mane ola bilərdim. Nə zülmlər ilə saxladım. Yenicə ağ günə çıxmışdı. Hələ də elə bilirəm ki, o, sağdır. Qayıdacağını gözləyirəm. Əlimlə yola salıb, indi də yolunu gözləyirəm... İki oğluna əsgər paltarı almışdı. Uşaqlar deyirdilər ki, ata, biz də sənin kimi bu paltarı geyinəcəyik".

Mərhumun anası oğluna iki il hərbiyə çağırış üçün bildiriş vərəqəsi gəlmədiyini qeyd etdi: "Eldara iki il çağırış vərəqəsi gəlmədi. Çox narahat idi. Əsgərliyə getmək istəyirdi. Soyadı sənədlərdə səhvən qız kimi yazılmışdı. Başqa adamlar olsa bundan istifadə edərdi, hərbiyə getməzdilər. Amma oğlum israrla müraciət edib, soyadını düzəltdirdi və əsgər oldu. Hərbidən qayıtdıqdan sonra yenidən getmək istəyəndə razı olmadım. Təkid etdi və sonunda razı oldum... Valideynləri olaraq həyatımız məhv olsa da, onunla fəxr edirik. Çünki torpaqlarımız uğrunda şəhid oldu. Məzuniyyətə bu ayın axırı çıxası idi. İcazə kağızı belə yazılmışdı".

Qonşular da mərhumla bağlı xatirələrindən, onun necə



**Xanımı Nərminə Fətəliyeva: "Həmişə deyirdi ki, mənə nəsə olsa, prezidentimiz uşaqlarımın yaxşı yaşaması üçün əlindən gələni edər"**

olmasından, igidliyindən danışdılar.

Şəhidimizin həyat yoldaşı Nərminə Fətəliyeva onun itkisi ilə barışmağın ömrünün axırına qədər ona çətin olacağını söylədi: "Eldar əvvəlcə hərbi xidmətini başa vurdu və qayıtdı. Sonra könüllü getdi. Sərrast atıcı idi. Post təhlükəli olduğundan çox yalvardıq ki, ön cəbhəyə çıxma, azyaşlı övladların var. Amma deyirdi ki, özümü orada daha rahat hiss edirəm. Bir həftə öncə iki erməni vurdu. Gələndə deyirdi ki, ermənilər çox analarımızı ağlar qoyublar, əlimdən gəldikcə qisas alacam. Telefonunun ekranında prezidentimizin əsgər formasında şəkli var idi. Həmişə deyirdi ki, mənə nəsə olsa, prezidentimiz uşaqlarımın yaxşı yaşaması üçün əlindən gələni edər. Övladlarının başsız qalmayacağından əmin idi. Erməniləri vurduqdan sonra mükafat alacağı bildirildi. Amma hələ ki verilməyib. Yəqin ki, təqdim edəcəkdilər, o da belə oldu. 5 il öncə Eldarla ailə həyatı qurmuşduq. İki azyaşlı uşağımız - Hüseyn və İlkin var... Çox yaxşı insan idi. Onu həmişə olduğu kimi xatırlayacam. Qəlbi təmiz, düzgün adam idi. Onu tanıdığım gündən heç vaxt bizə yalan danışmadı. Doğru yolla gedən, heç kimə ilişməyən adam idi. Sonuncu dəfə üç gün qabaq evdən çıxdı. Dedi ki, qayıdacağam. Amma o gedən getdi. Özü də birdəfəlik...".

Mərhumun həyat yoldaşı bu yerdə göz yaşlarına hakim ola bilmədi.

Fətəliyevlər ailəsinin yaxın qohumu Mustafa bəy də mərhumla bağlı xatirlərini bizimlə bölüşdü: "Hər kəs üçün canını verəcək qorxmaz insan idi. İlk dəfə onu Ləzim dərəsi deyilən yerə göndərmişdilər. Amma könüllü ön xəttə çıxdı. Heç kim onu etməzdi. İstəyirdi ki, qəhrəmanlıq göstərsin, qəhrəman olsun. Sonda da buna nail oldu. O, bir ailədən yox, hamımızdan getdi. Allah onu bu dünyadan etdi, o dünyasından etməsin. Qəbri nurla dolsun".



❑ **Cavanşir ABBASLI, Gədəbəy**
**Fotolar müəllifindir**

# "Dəyişən əqidəniz deyil, ritorikanızdır"



**İlhamiyyə RZA**

**Müxalifətin ağır artilleriyası kimi tanıdığım Rauf Arifoglu ilə ilk tanışlığım barədə yazmaq istərdim. Yadımdadır, ABA telekampaniyası bağlanandan sonra həmkarım İlqar Əlfi ilə birlikdə bir müddət "Yeni Musavat" qəzetində proje rubrikasında öz layihəmizi davam etdirməyə başladıq. Şəxsi tanışlığım da elə onda baş tutdu.**

Rəhbərlik etdiyi kollektivin ona sevgisi, redaksiyada hökm sürən işgüzar və səmimi ortam, eləcə də məni və İlqar Əlfini necə ürəkdən qarşılaması onun haqqında fikrimin formalaşmasında əsas oldu. Düzü, müxalif düşərgə insanlarının TV-də çalışanlara, kimliyindən asılı olmayaraq, bir yad münasibətinin olmasına alışmışdım.

Baxmayaraq ki, dövlət televiziyasında çalışsam da, onlara olan rəğbətimi heç vaxt gizlətmir, hətta sərgiləyirdim. Tədbirlərinə qatılır, müsahibələr verir, bir sözlə, TV-də çalışan başqa həmkarlarımın hər addımda ehtiyat edib müxalifətçilərdən uzaq dayandığı bir zamanda, mən bundan çəkinmirdim.

Jurnalist olaraq, tənqidi mövqedə olan, problemlərdən yazan həmkarlarım əqidəcə mənə daha yaxın idilər və TV-də çalışdığım müddətdə bacardığım qədər özüm də daha çox insanları narahat edən mövzulardan verilişlər hazırlayıb problemləri göstərməyə, onların həlli yollarını aramağa çalışırdım.

Beləliklə, ABA qapandıqdan sonra "Yeni Musavat"da çap olunmağa başladım. Və həmin vaxtdan etibarən, mən Rauf bəyi siyasət adamından daha çox qəzetçi, mətbuat adamı kimi qəbul etməyə başladım. Həqiqətən, məsələnin bu tərəfi ağır gəlirdi.

Bu gün Rauf bəyin partiya sıralarından çıxması bir daha bu qənaətimdə yanılmadığımı göstərdi. Qəzetçilik sahəsinə, heç şübhəsiz, liderlik edən "Yeni Müsavat" kimi bir mətbuat orqanın baş redaktorunun partiya funksioneri olması mənim cavab tapmadığım bir sual idi. Həmişə düşünmüşəm ki, jurnalist siyasi baxımdan bitərəf olmalı, cəmiyyətə dürüst, balanslı informasiya verməsi üçün heç bir siyasi partiyaya mənsub olmamalıdır.

Bu gün Rauf bəyin doğum günüdür (Yazı iyulun 23-də qələmə alınıb-red.) Amma adi ad günü deyil. Mətbuat adamı kimi mükafat alması, Müsavat Partiyasından istefa verməsi məhz bu günlərdə geniş müzakirə olunmaqdadır. İstər peşə bayramı, istərsə də özəl bir gündə ancaq xoş sözlər deyilməli olduğu halda, təbriklərlə yanaşı, onu qınayanların iradlarını da eşitmək heç də xoş olmamalıdır.

Amma bütün bunlar Rauf bəyin fəaliyyətinin cəmiyyətin diqqət mərkəzində olmasının və ictimai fiqur olaraq əhəmiyyətinin göstəricisidir.

Rauf bəy, siyasət adamları sizi əqidənizi dəyişməkdə ittiham etdiyi bir vaxtda, mən sizi qəzetçiliyə münasibətdə sadiq qalmağınız münasibətilə təbrik edirəm. Dəyişən sizin əqidəniz deyil, ritorikanızdır. Və bu dəyişkənlik peşəkarlıq baxımından ciddi irəliləyişdir.

İnanıram ki, aldığınız mükafatlara və prezidenti "söyməməyinizə"(əsas iradlardan biri) baxmayaraq, bundan sonra da dövlətin bütün eşelonlarına münasibətdə tənqidi mövqe sərgiləməkdən çəkinməyəcəksiniz. Özü də bundan sonra bu mövqe müxalif partiya mənsubunun mövqeyi yox, pisliklərə qarşı daim müxalifətdə olan bir qəzetçi mövqeyi olaraq daha kəskin olacaq.

Yeni yaşınız, yeni missiyanız mübarək!

# Pənah Hüseyndən önəmli açıqlamalar

## AXP sədri iqtidar-müxalifət münasibətləri, qarşıdan gələn parlament seçkiləri və ölkənin idarəolunması haqda olduqca maraqlı təkliflər irəli sürür

**Xəbər verdiyimiz kimi, iyulun 25-də Azərbaycan Xalq Partiyasının (AXP) III qurultayı keçirilib. Qurultayda sabiq baş nazir Pənah Hüseyn yenidən partiyanın sədri seçilib. Qurultay zamanı ölkədəki ictimai-siyasi vəziyyət müzakirə olunub, seçkilərdə iştirak və digər aktual ictimai-siyasi məsələlərlə bağlı partiyanın mövqeyi müəyyən olunub. Qeyd edək ki, qarşıdan seçkilər gəlir və hələlik müxalifət düşərgəsində seçkilərlə bağlı hər hansı ciddi hərəkətlilik müşahidə olunmur.**

Yeri gəlmişkən, ötən həftə qəzetimizə müsahibə verən Pənah Hüseyn məhz demokratik müxalifət düşərgəsində passiv durum və inteqrasiya istiqamətində ürəkaçan olmayan durumu tənqid etmişdi. Pənah Hüseynlə söhbətimiz də partiyanın seçkilər və ölkədəki siyasi vəziyyətlə bağlı qərarı, təklif etdiyi siyasi aktivlik kursunu davam etdirib-etdirməyəcəyi ilə bağlı oldu.

***- Pənah bəy, KİV-dən məlumdur ki, iyulun 25-də Azərbaycan Xalq Partiyasının qurultayı oldu və siz yenidən növbəti dönəm üçün partiyanın sədri seçildiniz. Əvvəla, təbrik edirik. Lakin belə bir sualı da veririk ki, sizdən hansı gözləntilərə görə yenidən partiya sədri seçdilər?***

- Azərbaycan siyasi həyatında ən son təcrübə siyasi böhran dövrlərində partiyalarda zərurətdən irəli gəlməyən, yalnız demokratik prosedurlar naminə eksperimentlərin, o cümlədən lider dəyişikliyinin xeyirdən çox zərər gətirə biləcəyi qənaəti yaratmışdır. Bu baxımdan çətin ki, indi belə eksperiment həvəskarları tapılsın. İkninci, AXP hazırda çox məhdud siyasi, təşkilati resurslarına rəğmən özünün siyasi proseslərə təsir baxımından nisbi güclü dövrünü yaşayır. Təsadüfi deyil ki, qurltayda iştiraka rəsmən nümayəndə olan əlli doqquz nəfərlə yanaşı bir o qədərə yaxın da fəal və təəssübkeş qatılmışdı. Qurltayda çıxış edənlər bir qədər də subyektivizmə gedərək bunu əsas etibarı ilə mənim adımla bağladılar və irəli sürdüyüm fikir və ideyaları geçəkləşdirmək üçün mənə imkan verilməsi mövqeyindən çıxış etdilər. Yeri gəlmişkən, fürsətdən istifadə edib onlara etimadlarına görə sizin qəzet səhifəsindən də təşəkkür edirəm.

**"Mən Azərbaycanda fəaliyyət göstərən partiyaları birləşdirməyin mexanizmini bilirəm"**

***- Siz zaman-zaman fikir və ideyalar irəli sürürsünüz. Qurultaydakı çıxışınızda hansı yeni təkliflər, fikirlər səsləndirdiniz ki, üzvlərinizdə dediyiniz övqat yarandı?***

- Qurultayda mövcud siyasi durum və AXP-nin perspektivləri, vəzifələri barədə geniş çıxış etdim. Bəzi tezislər sizin oxucular üçün də maraqlı ola bilər deyə burda da özətləmək istəyirəm. Birincisi, mövcud maliyyə-iqtisdi, sosial, siyasi və geosiyasi böhranın avtoritarizmdən demokratiyaya yımşaq keçidi nəinki kənara qoyur, əksinə, onun reallaşması üçün əlverişli şərait, şans yaradır. İkincisi, demokratiyaya keçidin əsas siyasi mexanizmi olaraq ictimai etimada malik parlamentin formalaşmasına nail olmaq lazımdır. Bunun açılımı cari situasiyada Milli Məclisdə müxalifətin əhəmiyyətli sayda və şəkildə təmsil olunması deməkdir. Azad, ədalətli, demokratik seçki şəraiti strateji hədəfini qətiyyən kənara qoymayaraq belə bir parlamentin hansısa bir keçid formasını bu ilki seçkilərdən yararlanaraq iqtidarla siyasi razılaşmalar yolu ilə yaratmağın mümkünlüyü sınaqdan keçirilməlidir. Altını çızmaqla ki, bu yanaşma "müxalifət deputatları" təyinatını yox, əksinə, mövcud şərtlər daxilində həqiqi seçki rəqabətini nəzərdə tutur. Üçüncüsü, ölkədə oliqarxlarsız hökümət, nazirlər kabineti yaradılmalıdır. Azərbaycan siyasi sisteminin sonrakı inkişafı həlledici şəkildə siyasi hakimiyyətin iqtisadi hakimiyyətdə məsafələnməsi, iqtisadi hakimiyyətin siyasi hakimiyyətdən ayrılması, daha sadə şəkildə desək, yeni mövcud hakimiyyət üzvlərinin siyasi postlardan məhrum edilməsindən asılıdır. Nə üçün? Burda yeni bir nəzəriyyə icad etmək lazım deyil. Ölkədə ilkin kapital yığımı dövrü başa çatmışdır. Avropada bu proses necə getmişdi? Müharibələr, müstəmləklərin istismarı, yağmalanması və sənaye inqilabı vasitəsilə. Bizdə necə baş verdi? Üç əsas yolla. Sovet dövründəki ictimai-dövlət əmlakının oğurlanması, korrupsiya və dələduzluq yolu ilə. Lakin nə olur-olsun, proses başa çatmışdır. İndi Azərbaycan hökuməti üzvlərinin əksəriyyəti vaxtlarının çoxunu dövlət vəzifələrinin icrasına yox, loru dillə desək, obyektlərinin idarə olunmasına sərf edirlər. Əslində aşağılara qədər vəziyyət belədir. Hətta yerli icra hakimiyyəti orqanları işçilərini, orta səviyyəli hüquq-mühafizə orqanı işçilərini yerlərində tapmaq olmur. Beyinləri bizneslərinin işləri ilə məşğuldur. Bu adamları göndərmək lazımdır ki, gedib həmin işləri ilə məşğul olsunlar və büdcənin, sosial fondların vergisini, ödənişlərini versinlər. Sizi tam inandırıram ki, onlar özlərinə, mülkiyyətlərinə qarantiya əldə etmək üçün bu gün boğduqları qanun, hüquq, demokratiya, müstəqil məhkəmə barədə bizdən bərk danışmağa başlayacaq, calışacaq - canlarını, mallarını bu yola qoyacaqlar. Bu, kapitalın təbiətidir. Kapital azadlıq, qanun, hüquqi təminat istəyir, istəməklə qalmır, bunu əldə edir. Sizə hazırkı iqtidarda təmsil olunan nazir, komitə sədrlərini demokratiya uğrunda mübarizlər şəklində görmək komik gəlir, deyilmi? Onları vəzifələrində uzaqlaşdırın, sonra danışaq. Görəcəksiniz ki, Soros bunların yanında necə qələt edir! İndi bəzi dostlar da özlərini çəxbilmiş sayıb, "bəs daha təpədəkilər" deyib, bizdə səhv tutmağa, bizi yarımçıqlıqda, cəsarətsizlikdə ifşa etməyə tələsməsinlər. Yumşaq keçidin qaydası budur. Yumşaq keçid sxemdə istisnaları, hakim siyasi iradə ilə sazişiləri, mütləq olaraq nəzərdə tutur. Demokratiyaya yumşaq keçidin, bunun başqa adı ilə ifadə etsək, əks halda, labüd olan böhrandan, sarsıntılardan qurtulmağın digər siyasi siyasi mexanizmi demokratik siyasi müxalifətin birləşməsi, idealda bir superpartiya şəklində konsolidasiyasından ibarətdir. Mən "seçkilərdən sonra partiyaları birləşdirəcəyik" deyərkən bunu nəzərdə tuturam. AXP-nin III Qurultayında açıq ifadə etdim, nümayəndələrə müraciət etdim. Siz kömək edin, əvvəlcə AXP-ni say və proseslərə təsir baxımından bəlli bir həddə qədər gücləndirək, mən bu partiyaları birləşdirməyin düsturunu bilirəm. Onlar birləşmir, biz onlara birləşərik! Bizim üçün ad və s. bu kimi məsələlər önəmli deyil. Ancaq səylərimizin ciddi qarşılanması üçün gərək əvvəl işləyək, real stuktura çevilək ki, bu baxımdan da bu ilki seçkilərdə real uğur fövqəladə əhəmiyyətli ola bilər. Yəni ictimai etimada malik parlament, oliqarxlarsız kabinet, müxalifət partiyalarının birləşdirilməsi. Biz əslində digər partnyorlarımızla birlikdə bu istiqamətdə son bir ilə yaxın müddətdə sıfır imkanlarımız olduğunu nəzərə alsaq, əməllicə yeni ortam yarada bilmişik. Bu başqa məsələdir ki, ölkədə ümumi vəziyyət ağırlaşmaqda davam etməkdədir.

**"İndi Azərbaycan hökuməti üzvlərinin əksəriyyəti vaxtlarının çoxunu dövlət vəzifələrinin icrasına yox, loru dillə desək, obyektlərinin idarə olunmasına sərf edirlər"**

**"Hazırkı nazirləri, komitə sədrlərini vəzifələrindən uzaqlaşdırın, görəcəksiniz ki, Soros demokratiya uğrunda mübarizədə bunların yanında necə qələt edir!"**

***- Pənah bəy, hər halda mövqeyinizdə ziddiyyəti özünüz görüb hiss etmirsinizmi? Bir tərəfdən yeni ortamdan, digər tərəfdən vəziyyətin ağırlaşmasından danışırsınız?***

- Mənim dediyim də ondan ibarətdir ki, vəziyyətin özü ziddiyyətlidir və məsələ prosesdə bu ziddiyyətin həllindən asılıdır. Bu ziddiyyətlər biri birini istisna etməklə yanaşı biri- birini həmdə ehtiva edir, şərtləndirir. Mən yuxarıda qeyd elədim bir daha təkrar edrəmm. Məhz indiki və günü-gündən ağırlaşan maliyyə-iqtisadi, sosial, siyasi və geosiyasi böhran demikratiyaya yumşaq keçid üçün şərait, şans yaradır. Və seçkilərdə iştirak barədə siyasi qərar verərəkən AXP bu çıxış nöqtəsini əsas götürür.

**"Seçkidə qeyd-şərtsiz iştirak edəcəyik"**

***- Yeri gəlmişkən, siz seçkilərdə qeydsiz-şərtsiz iştirak barədə qərar verərkən, müxalifət düşərgəsindən "nəticəsi əvvəlcədən bəlli olacaq seçki adlı tamaşada rol almağa hazırlaşmırıq, hər şeyi əvvəldən bəlli olan seçkidə iştirak etməyəcəyik" bəyanatları səsləndirildi.***

- Bu, məlum mövqedir və ilk baxışda sadə və məntiqli görünür. Lakin mən fərqli düşünürəm və bu məsələ barədə fikirlərimi hələ keçən ilin payızından İsa Qəmbərin rəhbərlik etdiyi Milli Strateji Düşüncə Mərkəzində "Qeyri-demokratik, azad olmayan və ədalətsiz şəraitdə müxalifətin seçkilərdə iştirakının siyasi mahiyyəti, məqsədi və perspektivləri haqqında" adlı məruzədə şərh etmişəm. Həmin məruzə keçən ilin sonunda sizin saytda dərc olunub və xahiş edəcəm mövzunun aktuallaşdığını nəzərə alıb mümkün olsa onu bir daha oxu üçün təkrar qoysunlar. (REDAKSİYADAN: P.Hüseynin bəhs etdiyi yazı bu linkdədir. http://musavat.com/news/penah-huseyn-2015-ci-ilin-parlament-sechkilerinden-yazdi-analitika_231925.html ttp://musavat.com/news/penah-huseyn-2015-ci-ilin-parlament-sechkilerinden-yazdi-analitika_231925.html). MSDM son aylarda konkret builki Milli Məclis seçkilərini müzakirəyə çıxarıb və mən bu barədə də həmin müzakirələrdə bilavasitə iştirak etməsəm də, yazılı qeydləriimi İsa bəyə göndərmişəm. Sözün doğrusu, mən qurultayda çıxış edərkən Milli Şuranın seçkilər mövzusunu müzakirə edəcəyindən məlumatsız idim. Lakin qurultaydakı çıxışımda ifadə etdim ki, müxalifətin əhəmiyyətli kəsimi bu seçkiləri boykota meyillənə bilər. AXP-nin öz qurultayında seçkilərdə iştirak barədə siyasi qərar verməsinin bir məqsədi də ondan ibarətdir ki, demokratik düşərgənin bu seçkiləri boykot mövqeyinə keçməməsinə təsir göstərsin. Seçkilərdə iştirak, iqtidarla seçki məsələlərində siyasi saziş və razılaşmalar təklifi insan hüquq və azadlıqları uğrunda, hazırda bunun Azərbaycanda simvolu, işarəsi də qeyd-şərtsiz siyasi məhbus, siyasi təqib qurbanlarına münasibətdən ibarətdir, vaz keçmək ola bilməz. Bununla əlaqədar qeyd edim ki, AXP qurultayı "Azərbaycanda siyasi məhbus və siyasi təqib problemi"nə dair sərt bəyanat qəbul etdi və Qənimət Zahidin qohumları ilə bağlı ən son faktlar da daxil olmaqla bu təqibləri pislədi.



**"Demokratiyaya keçidin əsas siyasi mexanizmi Milli Məclisdə müxalifətin əhəmiyyətli sayda və şəkildə təmsil olunmasıdır"**

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 161 (6189) 27 iyul 2015

**Binəqədi rayonunda 15 nəfərin ölümünə, 56 nəfərin isə xəsarət almasına səbəb olan dəhşətli yanğından iki aydan çox vaxt keçsə də, hadisə ilə bağlı bir sıra suallara hələ də aydınlıq gəlməyib.**



# Yanğınlarla bağlı istintaq bitir: məmurlar təlaşda

## Abid Şərifov Binəqədidə və Xətaidəki yanğınlarla bağlı istintaqın yaxın 10 gündə yekunlaşacağını dedi; həbs edilənlər məsuliyyətin yalnız onlara "yüklənməsi" ilə razılaşmırlar

Yanğınla bağlı yaradılan dövlət komissiyasının sədri Abid Şərifov ANS-ə müsahibəsində istintaqın yaxın 10 gündə bitəcəyini açıqlayıb. Qeyd edək ki, yanğından dərhal sonra poliuretan məmulatını istehsal edən "Qlobal Stone" MMC-nin baş direktoru Uğur Bəşirov, "Global Construction" MMC-nin sədr müavini Ələkbər Əsgərov, 2012-2013-cü illərdə Binəqədi rayon mənzil-kommunal təsərrüfat birliyinin rəisi işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcəbov və Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin rəisi Nizami Orucov Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Bundan sonra daha bir sensasion həbs gerçəkləşdi. Belə ki, 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov tutuldu. Onun barəsində də 4 aylıq həbs qətimkan tədbiri seçildi. Qəzənfər Novruzov Naxçıvan Muxtar Respublikasının daxili işlər nazirinin müavini, general-mayor Səbuhi Novruzovun qardaşıdır. Səbuhi Novruzov isə Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovun bacısının həyat yoldaşıdır.

Xatırladaq ki, Xətaidəki binada baş verən yanğın da eyni səbəbdən də komissiyanın sədri Abid Şərifov hələ bir müddət əvvəl "heç kimin məsuliyyətini üzərimə götürən deyiləm" kimi mesaj göndərərək bir neçə məmuru çətin sınaq gözlədiyinə işarə edib.

A.Şərifovun istintaqın 10 günə yekunlaşacağını deməsi onu göstərir ki, prezident bu məsələni diqqətdə saxlayır və güman ki, yaxın günlərdə dövlət komissiyasının iclası keçiriləcək. Redaksiyamıza daxil olan məluma-



**Abid Şərifov**

icraatda birləşdirilərək Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində araşdırılır. Prezidentin göstərişindən sonra Xətaidəki poliuretan üzlüklə binanı üzləmiş "TNH" səlahiyyətlisi Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov da saxlanaraq barələrində həbs qətimkan tədbiri seçilib. Baş Prokurorluq bu müddət ərzində yalnız onu bildirib ki, istintaq davam edir və hadisənin baş verməsində təqsiri olan digər vəzifəli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək onların məsuliyyətə cəlb olunması istiqamətində istintaq əməliyyat tədbirləri aparılır.

Xəbərlərə görə, dövlət komissiyası təkcə Binəqədidə deyil, həmçinin Xətaidəki yanğınla bağlı da tam hesabat hazırlayıb prezidentə təqdim etməlidir. Dövlət Komissiyası hər iki binanın niyə və nədən yanması ilə bağlı dəqiq məlumat verməli, bu işdə məsuliyyətsizlik edən bütün dövlət qurumlarının adını çəkməlidir. Çünki dövlət başçısı komissiyanın iclasında "hamı məsuliyyəti bir-birinin üzərinə atmaq istəyir" deyərək hüquq-mühafizə orqanlarından ciddi araşdırma tələb edib. Bu

ta görə, əslində istintaqın tam yekunlaşmasından söhbət getmir, çünki əsasən də Binəqədidəki yanğınla bağlı həbs edilənlər məsuliyyətin yalnız onlara "yüklənməsi" ilə razılaşmırlar. Qəzənfər Novruzovun istintaqda verdiyi ifadəsində isə Binəqədinin icra başçısı Xaləddin İsgəndərov barədə şok məlumatlar açıqladığı deyilir. Məlumata görə, Xətaidəki yanmış bina ilə bağlı gözlənilməz həbslər də icra başçısı Razim Məmmədovu çıxılmaz vəziyyətə salıb. Bu işdə həbs edilənlər də məsuliyyəti Xətai İcra Hakimiyyətinin yetkililərində görürlər.

Avqustun 5-dən sonra icra başçılarının "təmizlənməsi" prosesinin başlayacağı haqda xəbərlər təsdiqlənərsə, ilk sırada Binəqədinin və Xətainin icra başçılarının olacağı şübhə doğurmur.

❑ **"Yeni Müsavat"**




# Əli Kərimlinin "profil oğruları" yaxalandı

**Son günlər "Azadlıq" qəzetinin facebook profilinin sosial şəbəkələrdə kiber-cinayətkarlıqla məşğul olması haqda xəbərlər dolaşırdı.**

"Azadlıq Qəzeti" profili vasitəsilə istifadəçilərin şəxsi profilinin oğurlanması, sonra həmin oğurluq profildən AXCP sədrinin səhifəsinin bəyənilməsi, rəqiblərinin təhqir olunması haqda informasiyalar yayılırdı.

Bütün bu deyilənlərin həqiqət olub-olmadığını yoxlamaq




üçün araşdırma aparmağı qərara aldıq. Daha doğrusu, bu profildən gələn mesajdan sonra yalançını evinə qədər qovmaq istədik. Görün nələr baş verdi...

Öncə bizə bu fotoda gördüyünüz mesaj gəldi. "Azadlıq Qəzeti" deyilən bu profilin sahibi əməkdaşlarımızdan birinə onun çılpaq şəkillərinin yayıldığını və www.kitabevi.az/pages ünvanına girib, şəkillərə baxa biləcəyi haqda mesaj göndərdi.

Biz deyildiyi kimi də etdik: göndərilən linkə daxil olduq. Təxminlərimiz özünü doğrultdu: bizdən Facebook "login




və parol"u tələb edildi. Buna kompüter termini ilə "fişinq" deyirlər, login və parol oğurlamağın köhnə yollarından biridir.

Oxucuda sual yarana bilər: Profil ələ keçirməkdə nə marağı var? Səbirli olun, indi görcəksiniz.

Demək, bu profil oğruları oğurladıqları profilin loqin və parolunu dəyişməməklə, sahibin xəbəri olmadan, istədikləri hoqqabazlığı edə bilirlər.

Bizim başımıza nə oyun gətirdilər? "Ali Karimli (Əli Kərimli)" və "Azadlıq Radiosu" səhifələrini bəyənib, istədiklərini yazırlar. Aşağıda bizim sahib olduğumuz profilin "Ali Karimli" səhifəsini bizdən xəbərsiz necə bəyəndiyinin əyani şahidi olursunuz.

# Qarabağ və Azərbaycanın imici...



**Hüseynbala SƏLİMOV**

**İlin sonunda prezidentlərin görüşəcəyi haqda xəbər Qarabağ ətrafındakı söz-söhbətə, hətta şaiyələrə bir qədər aram verdi desək, yanılmarıq. Düzdür dərhal sual da yarandı: ortalıqda hansısa bir razılaşma var, yoxsa prezidentlərin görüşünü həmişə olduğu kimi sıradan bir görüş hesab etmək lazım gələcək? Doğrusu, bu sualın inandırıcı cavabı yoxdur...**

Əslində Qarabağ ətrafında şayiələrin yaranması bizim siyasi gerçəkliyin əcaib təzahürüdür. Belə olmamalıdır, insanlar həqiqəti bilməli, prosesdən hali olmalıdr. Diplomatik qaydaları inkar etmirik, prosesə ziyan vurmamaq üçün bəzən, hətta əksər hallarda, danışıqlarla bağlı təfərrüatlar açıqlanmır.

Amma üç ildən, beş ildən bir xarici siyasət idarəsinin hesabatla çıxış etməsinə nə var? Bunu da etmək çətindirmi? Təəssüf ki, ölkədə hələ də belə bir qənaət qüvvədədir ki, insanlar həqiqəti bilməsələr də olar, əsas odur ki, onlar öz hökumətlərinə inansınlar...

Amma belə olmalıdırmı? Hakimiyyət belə hesab edir ki, Qarabağ problemini həll etmək üçün cəmiyyət onlara müddətsiz mandat verib. Gəl, heç bir vaxt belə olmur...

Bu vaxta qədər bunun belə olmasının isə bir səbəbi var: hakimiyyət ictimai rəydən, seçicilərin sanksiyasından asılı deyil. Belə bir asılılığın olmaması da ölkədəki siyasi sistemin əcaib özəlliklərindən biridir...

Mənim yadıma əvvəlki dövrlər gəlir. Biz o vaxt deyirdik ki, ölkənin demokratikləşməsi həm də Qarabağ probleminin həllinin şərtlərindən biridir. Təəssüf ki, bu tezisə axır vaxtlar diqqət yetirilmir. Ölkənin içində yaranmış arxayınçılıq, cəmiyyətin hökumət haqqında nə düşünməsinin fərqinə varılmaması ölkənin xaricdəki imicilə bağlı da arxayınçılıq, hətta deyərdik ki, etinasızlıq yaradır...

Amma bu, çox yanlış mövqedir. Bəli, biz deyə bilərik, Avropanın, onun institutlarının Azərbaycan haqqında nə düşündüyü bizi maraqlandırmır.

Amma bu, çox yanlış mövqedir. Bunun fəsadları hələ bir müddət sonra özünü biruzə verəcək. Dövlətlər özlərinin xaricdəki imiclərinə həssas olmalıdır və bir qayda olaraq həssas da olurlar....

Yalnız avtoritar rejimlər başa düşür ki, nə qədər çalışsalar da özlərini sevdirə bilməyəclər. Ona görə də onlar öz siyasi aqibətləri ilə barışmalı olur və gec-tez yalnız etinasızlıq nümayiş etdirməklə özlərinin psixoloji durumlarını tənzimləyirlər...

Həm də bir məsələni yaddan çıxarmaq lazım deyil. Bir siyasi sistem haqda qərar qəbul edilərkən əvvəlcə onun obrazı formalaşdırılır. Bu, o qədər mənfi obraz olur ki, həmin avtoritar siyasi sistemə qarşı yönəlmiş bütün sanksiyalara bir növ bəraət qazandırır...

Xaricdə Azərbaycan və onun siyasi sistemi haqda obraz yaratmağa cəhd edən təbii ki, birinci növbədə erməni lobbisidir. Biz bir çox hallarda dediklərimizin, bəyanatlarımızın fərqində olmuruq. Amma bunları erməni lobbisi də eşidir və özü üçün qeyd edir...

Erməni lobbisinin bütün fəaliyyəti ona yönəlib ki, ermənilərin Azərbaycanda yaşamasının mümkün olmamasına dünyanı inandıra bilsin.

Biz də özümüzün axıra qədər diqqətlə düşünülməmiş bəyanatlarımızla sanki həmin lobbinin dediklərini, təbliğ etdiklərini təsdiqləyirik. Amma belə olmalıdırmı? Təbii ki, yox...

Sözsüz ki, ölkədə hansısa siyasi sistemin olması onun ərazisini işğal etməyə əsas vermir. Amma ermənilər çox fəndgirdirlər. Onlar özlərinin siyasi "qurum"larını elan ediblər və bu "qurum"u Azərbaycandan ayırmağa cəhd edir, özləri haqqında azadlığa can atan, "azadlıqsevər" bir xalq obrazı yaratmağa cəhd edirlər...

Bəs bizə nə gəlib? Biz niyə yaxşı adımızı yaman edirik?... Mən başa düşürəm, bizim kimi müstəqil adamların dediklərinin, yazdıqlarının fərqinə varmırlar və ən yaxşı halda deyirlər ki, qoy, özləri üçün danışsınlar...

Amma biz özümüz üçün danışmırıq, özümüz üçün yazmırıq. Ən azı ona görə ki, bu ölkə həm də bizim ölkəmizdir və onun taleyi bizim üçün heç də əhəmiyyətsiz deyil...

Həm də heç kimə haqq verilməyib ki, ölkənin adına hansısa formada xələl gətirsin. İstəməzdik ki, Azərbaycanın xaricdəki siyasi obrazı və imici yalnız bu ölkənin vətəndaşlarına siyasi sığınacaq vermək üçün yararlı olsun...

Bəlkə də kiməsə bu, xoşdur. Amma bizim bu ölkəni tərk etmək və haradasa siyasi sığınacaq almaq fikrimiz yoxdur, biz taleyimizi birdəfəlik bu ölkə ilə bağlamışıq və bundan peşiman da deyilik, çünki insan valideynləri kimi vətənini də seçmir...

Həm də belə hesab etmirik ki, Azərbaycan əbədi olaraq bir siyas qüvvə və bir siyasi sistemlə bağlı olacaq. Ola bilsin, kimsə özlüyündə belə fikirləşir və yalnız və yalnız bu ssenari üzərində "futuroloji" konsepsiya qurur. Amma biz bunu istəməzdik...

YENİ MÜSAVAT
N 161 (6189) 27 iyul 2015



# Dizbalaq fətvası

Samir SARI

**Rəhmətlik şair Xəlil Rza Ulutürk sağ olsaydı, yəqin ki, danışığında “şortik” və “kislota” sözü işlətdiyinə görə Hafiz Hacıyevin boğazına əridilmiş qurğuşun tökməyi tövsiyə edərdi. Ağsaqqal ziyalımız ana dilimizin qayğısına çox qalırdı, bu məsələdə xeyli həssas idi.**

Gerçəkdən də gül kimi “sulfat turşusu” termini varsa, “kislota” nədir? Düzdür, indilikdə “şortik” sözünün bir kəlmlik əvəzedicisi yoxdur. Gərək ya “qısa şalvar” deyək, ya da nəsə başqa bir şey. Mən “dizbalaq” təklif edirəm, yəni balağı dizdən olan şalvar.

İndi keçək əsas məsələyə. Bildiyiniz kimi, Hafiz Hacıyev qısa şalvar geyən vətən oğullarına qarşı böylə bir fətva verib, deyib ki, onların qıçasına sulfat turşusu atmaq lazımdır.

Belə bir qəddarlığın həyata keçirilməsində məqsəd qısa şalvar geyinmiş eloğluların qıllı qıçını yandırıb eybəcərləşdirməkdir ki, onlar bir daha mentalitetimizə zidd geyimlər geyməsinlər.

Bilməyənlər onu da bilsinlər ki, o andır sulfat turşusu düşdüyü yeri pis yandırır, elə yandırır ki, eybəcər ləkəsi qalır. Bu kimyəvi maddə ələ, ayağa, bədənin görünməyən yerlərinə düşəndə yenə birtəhər təhəmmül etmək olar, amma üzə, boyuna dəyəndə çox pis fəsadlar törədir.

Qısa şalvar geyən kişilərin qıçına sulfat turşusu tökülməsini tövsiyə, hətta əmr edən Hafiz Hacıyev yandırılmalı bədən üzvünü seçərkən əslində bir qədər humanistlik edib. O, başqa əzaları da tuşuda bilərdi.

Ancaq bir əngəl var ki, sulfat turşusunu hələm-hələm əldə etmək mümkün deyil, yəni dükanda satılmır. Nə də bunu kustar üsulla düzəltmək mümkün deyil ki, tut arağı çəkən tanışlardan “mənə bir butulka sulfat turşusu çək, əlimdə savab işim var” deyə xahiş edəsən.

Vikipediya bu kimyəvi maddə barədə yazır: “Susuz sulfat turşusu adi şəraitdə rəngsiz, iysiz, yağabənzər ağır mayedir, 10,45°S-də donur, 296,2°S-də qaynayır. Qatı sulfat turşusu bütün metallarla reaksiyaya girir, ... qızdırıldıqda bütün metalları (qızıl və platin müstəsna olmaqla) oksidləşdirir. Durulaşdırılmış sulfat turşusu gərginlik sırasında hidrogendən solda yerləşən bütün metallarla (qurğuşundan başqa) reaksiyaya girir”.

Ona görə də qısa şalvar geyinən bəylər və xanımlar çox da narahat olmasınlar, hər ürəyi istəyən onların qıçına $H_2SO_4$ (andırın kimyəvi tərkibi belədir) maddəsi ata bilməz. Bunu eləsə-eləsə, yalnız qəsdə dolanlar, qatı fanatiklər, namus-qeyrət qarovulçuları edə bilər.

Ölkəmizdə belələri də var, əlbəttə. “Sahil” bağında it gəzdirərkən “namus üstə bıçaqlanan” gəncin, parkda sevgilisi ilə busə mübadiləsi edərkən öldürülən cavanın, sevgilisini liftə ötürüb geri dönərkən ürəyindən bıçaqla vurulan aşiqin acı taleyini yada salanda hiss edirsən ki, topuqdan dizə qədər olan 20-25 santimlik qıllı (eləcə də hamar və şümal) əzanın, anatomiya terminləri ilə desək, qamış və incik sümüklər olan hissənin görünməsinə görə adamı kesici-deşici alətlərlə yaralaya bilərlər. Hətta hücum nəticəsində büzdüm sümüyünün yerləşdiyi nahiyəyə xətər dəyməsi ehtimalı da var.

Bəs prezidentliyə keçmiş namizədi belə bir fətva verməyə nə məcbur edir? Milli mentalitetmi, dini heysiyyatmı, yoxsa siyasi populistlikmi?

Bir çoxları sonuncudan quşqulanır. “Havalanıb” deyənlər də var. Bəzi biləndar adamlar isə deyirlər var ki, Hafiz müəllimin son illərdə verdiyi bəyanatlar və açıqlamalar psixiatrlar tərəfindən təhlil olunarsa, onun ruhi sağlamlığında problem olmadığı meydana çıxar. Heç bir problem yoxdur artıq.

Hətta sizə deyim ki, tamam əksinə ola bilərdi. Əgər həmin o “şortik fətvası”nı iranlı axundlardan biri versə, “Bakıda kişilər qısa tuman geyir, din əldən gedir” deyə haray salsaydı, sizi əmin edirəm ki, hamıdan birinci məhz Hafiz Hacıyev qısa şalvar geyib bulvara çıxar, axundlara meydan oxuyardı, deyərdi, müstəqil dövlətik biz, heç kəs burnunu bizim şortikimizə soxmasın.

Adam bu dərəcədə prinsipialdır. Amma yaxşı olar ki, danışığında “kislota” və “şortik” sözləri də işlətməsin.



# Xaləddin İsgəndərovun oğlu Binəqədidə necə “ikinci adam” olub?

## Rayon İcra Hakimiyyətinin başçısı övladına və digər qohumlarına lüks otaqlar verib...

**Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov medianın “ulduz”una çevrilib. Yaxın qohumu, vergilər naziri Fazil Məmmədovun dəstəyi ilə Binəqədiyə icra başçısı təyin edilən X.İsgəndərovun özbaşınalıqları haqda çoxsaylı şikayətlər çoxdan vardı.**

Amma mayın 19-da bu rayonda 16 mərtəbəli binada baş verən dəhşətli yanğından sonra X.İsgəndərovun və başına yığdığı qohumlardan ibarət komandasının əməlləri barədə məlumatlar daha da artdı. Prezident İlham Əliyevin iyulun 13-də keçirdiyi müşavirədə Fazil Məmmədovun nazirliyini sərt tənqid etməsi X.İsgəndərovun toxunulmaz hesab etdiyi kreslosunu xeyli laxladıb. İddialara görə, X.İsgəndərovun əməlləri ilə bağlı dosye hazırlanıb. Məlum olub ki, icra başçısı olduğu cəmi bir neçə il ərzində yığdığı xəraclar sayəsində X.İsgəndərov iri oliqarxa çevrilib.

Belə ki, rayon ərazisindəki tikililərə qiymət vahid cədvəl əsasında qoyulub. Əgər Xaləddin İsgəndərovdan əvvəl Biləcəri, Binəqədi və Xocasən qəsəbələrində hasar çəkmək pulsuz, istənilən ölçüdə ev tikmək isə 500-1000 manat “şirinliklə” baş tuturdusa, X. İsgəndərov öz tariflərini müəyyən edib. Onun göstərişi ilə rayon ərazisində hasar çəkmək 2-3 min, kürsülü ev 8-10 min, iki mərtəbəli evin tikintisi üçün isə 12-15 min manat rüşvət tələb olunur. X.İsgəndərovun qanunsuz hərəkətlərindən biri də icra hakimiyyətinin birinci mərtəbəsində oğluna - Binəqədi İcra Hakimiyyətinə heç bir dəxli olmayan Elnur İsgəndərova lüks kabinet verməsidir. Binəqədidə icra başçısından sonra ikinci şəxs Elnur İsgəndərov hesab edilir. Rayon ərazisində tikinti üzrə bütün işlər onun nəzarətində aparılır. İş görmək istəyən hər kəsə “kiçik İsgəndərovun” telefon nömrəsi verilir. E.İsgəndərovun Binəqədi ərazisi üzrə hər kənd və qəsəbədə 3-4 nəfər işçisi var. Bu şəxslər həmin ərazidə tikinti aparan şəxslərdən pul alaraq birbaşa icra başçısının oğluna çatdırır. Hətta kimsə həyətində tikinti işi görürsə, E. İsgəndərov əmisi oğlu Valeh İsgəndərovu həmin əraziyə yollayaraq məlumatı öyrənir. Əgər həmin şəxs pul vermirsə, Valeh İsgəndərov və dostları müdaxilə edirlər. Valeh İsgəndərov da qeyri-rəsmi olaraq Binəqədi İcra Hakimiyyətində əsas vəzifələrdən birini tutur. O da icra başçısının əsas “pul yığanlarından” biridir. Rayonda tikinti, torpaq alqı-satqısı, digər bütün qara işlər həm də onun əli ilə həyata keçirilir. X. İsgəndərovun yanında digər qohumu - bacısı oğlu Araz da işləyir. O, X.İsgəndərovun sürücüsü və təhlükəsizliyinə nəzarət edir.

“Elnur müəllim” kimi tanınan icra başçısının oğlu tikinti sahəsi ilə yanaşı “paket” (yəni qeyri-formal maaş) işinə də baxır. Yaxşı işləyənlərə daha qalın “paket” verirlər ki, E.İsgəndərov bununla da öz əliaçıqlığını göstərir. Binəqədidə demək olar ki, hər daşın altında onun əl var. Onun izni olmadan Binəqədidə nə tikinti, nə də başqa iş görülməsi, sadəcə, mümkün deyil.

Binəqədi rayonu bütünlükdə Xaləddin İsgəndərovun oğlu, qardaşı oğlu və bacısı oğlunun qeyri-rəsmi inhisarındadır. Onlar da hərəsi bir neçə bələdiyyə və sahə idarələri üzrə nəzarət funksiyasını yerinə yetirirlər.

X. İsgəndərovun ailə şirkətinə çevirdiyi icra hakimiyyətində baş verənlərlə bağlı yaxın günlərdə ciddi qərar veriləcəyi gözlənilir. Məlumatlara görə, rayonun digər strukturlarda çalışan rəhbər şəxsləri də X.İsgəndərovun əməllərindən beziblər. İcra başçısı “hamısı mənim” deyib digər strukturların da işinə qarışır, hətta onların maraqlarında olan beş-üç manat “şirinliyə”də göz dikir.

❑ **“Yeni Müsavat”**

# Döyülən sabiq cəbhəçi qanunsuzluqdan şikayətlənir

## Ağaşirin Tanrıverdioğlu: “Sahib Kərimlinin özü məni vurduğunu etiraf edib”

**AXCP-nin Nərimanov təşkilatının sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlu keçmiş partiyadaşı Sahib Kərimli tərəfindən fiziki təzyiqlərə məruz qalması ilə bağlı açılan istintaq işinin hər vasitə ilə ört-basdır edilməsindən şikayətlənib.**


Ağaşirin Tanrıverdioğlu

Ağaşirin Tanrıverdioğlu “Yeni Müsavat”a açıqlamasında bildirib ki, Sahib Kərimli açıq-aşkar istintaq işindən kənar saxlanılır:"Artıq bir aya yaxındır ki, döyüldüyüm üçün polisə müraciət etmişəm, ibtidai istintaq işi açılsa da, ortda hələ də bir nəticə yoxdur. Bu da o deməkdir ki, Sahib Kərimli və Arzuman Məcidlinin hakimiyyət dairələri ilə yaxından əlaqəsi var. Sadəcə, mənə maraqlıdır, bilmək istəyirəm ki, bu işin sonu necə bitəcək? Sahib Kərimlinin özü məni vurduğunu etiraf edib. Döyən də, döyülən də məlumdur, ilkin istinaq işini aparanlar isə bildirirlər ki, burda nə cinayət, nə də xəta var. Əgər bu hadisə əksinə olaraq baş versəydi, yəni mən Sahib Kərimli ictimai bir yerdə adi bir şillə vurub onu təhdid və təhqir etsədyim, tez bir zamanda tutulub ən azı 2 il həbs cəzası alardım. Hər kəsə məlumdur ki, ictimai yerdə qayda pozulub, vətəndaşa əl qaldırılıb, təhdid və təhqir edilib, lakin istintaq orqanları bu məsələyə barmaqarası baxır və deməli, proses birtərəfli aparılır.

Daimi olaraq polis idarəsinə gedirəm, lakin mənə bildirirlər ki, işə baxılması üçün vaxta hələ var, Sahib Kərimli isə istintaqdan kənarda saxlanılır. O yalnız bircə dəfə ibtidai istintaqın başlanğıcında polis idarəsinə gedərək etdiyi hərəkət barədə izahat yazıb. Lakin aidiyyəti orqanlar bundan sonra onun haqqında bir dəfə də olsun maraqlanmayıb. Sahib Kərimlinin iş yeri, vəzifəsi, yaşadığı ünvanı məlumdur. Lakin görünür ki, hansısa maraqlar onun məsuliyyətə cəlb edilməsinin qarşısını alır. Bu da onu göstərir ki, işi obyektiv araşdırmaq polisin imkanları daxilində deyil. Açıq-aşkar hansısa məmur bu məsələyə müdaxilə edir, istintaqın bağlanması üçün çalışır".

Sabiq AXCP-çi şikayətinə baxılması üçün prezidentə və digər rəhbər orqanlara müraciət edəcəyini deyib: "İstintaq işini mənasız yerə yubadılmasına baxmayaraq, mən bu məsələnin sonunadək gedəcəm. Ombusdman Aparatına, Respublika Prokurorluğuna, Ədliyyə Nazirliyinə, hətta prezidentə də müraciət edəcəm. Bütün bu proseslər onu göstərir ki, dövlətin məmurları dövləti vətəndaşın gözündən salır".

❑ **Xalidə GƏRAY**

**"Baxış bucağı"**

**Dövlət başçısının ölkədəki qiymətlərlə əlaqədar tənqidi fikirləri, müəyyən qurumlara ünvanlı iradları xeyli müzakirə mövzusu olsa da, vəziyyət hələ ki, dəyişməyib. Milli Məclisin istiqlalçı deputatı, tanınmış iqtisadçı Vahid Əhmədovla gündəmin bir sıra aktual mövzularını əhatə edən söhbətimizi təqdim edirik:**

# "AZAL-da qiymətlər 40-50 faiz aşağı salınmalıdır"

## Vahid Əhmədov: "Rauf Arifoğlu ilə bağlı qınaqları qəbul etmirəm"

*- Vahid bəy, ölkə başçısının hökumət üzvlərinin iştirak etdiyi müşavirədə qiymətlərlə bağlı iradları vətəndaşları ümidləndirsə də, hələlik dəyişən bir şey yoxdur. Sizcə, niyə?*

- Cənab prezident son vaxtlar ictimaiyyətə çox ciddi mesajlar verdi. Bu mesajlardan biri də dərman preparatlarının qiymətləri və aviasiya biletləri ilə əlaqədar oldu. Doğrudan da, bu iki sahədə vəziyyət yaxşı deyil. Yəni qiymət siyasəti düzgün qurulmayıb və bazar iqtisadiyyatının boşluqlarından istifadə edərək sahibkarlar, yaxud qeyri-sahibkarlar qiyməti qaldırırlar. AZAL-ın qiymətləri ilə yaxın Gürcüstan, ya Türkiyəni müqayisə edəndə görürük ki, qiymətlər çox yüksəkdir. Cənab prezident də qeyd etdi ki, bütün saytları oxuyur, informasiya alır, hər şeydən xəbəri var. Ona görə də mesajını verdi ki, qiymətlər normal vəziyyətə gətirilsin. Bu barədə iqtisadi inkişaf və maliyyə nazirlərinə göstəriş də verdi. Artıq İqtisadi İnkişaf Nazirliyində kollegiya iclası keçirilib, orda müəyyən təkliflər işlənib-hazırlanıb, həmin təkliflərə uyğun olaraq, yəqin, qiymətlər normal hala gətiriləcək.

*- Lakin AZAL rəsmisi dedi ki, qiymətlər 20 faiz aşağı salınarsa, bu, keyfiyyətə təsir edəcək. Razılaşmaq olarmı?*

- Bunlar hamısı uydurmalardır. Hesablamalar, rentabellik məsələsi var. Dövlət başçısı da qeyd etdi ki, AZAL-a alınan bütün təyyarələr, resurslar və s. dövlət büdcəsi tərəfindən həyata keçirilir. Elə isə qiymətlər niyə yüksək olmalıdır? Niyə Gürcüstan və Türkiyədə qiymətlər aşağı olmalıdır, Azərbaycanda yüksək? Yəqin ki, müəyyən qərarlar qəbul olunacaq, ona görə də tələsmək lazım deyil. İnanıram ki, iqtisadi inkişaf naziri cənab Şahin Mustafayev tərəfindən müəyyən qərarlar veriləcək.

*- Gözlənilirdi ki, müşavirədən dərhal sonra endirimlər başlayacaq, lakin olmadı. Hətta birinci şəxsin iradəsinə zidd getmək iqtidarında olan qüvvə hansıdır ki, qiymətlərin endirilməsinə müqavimət göstərir?*

- Azərbaycanın aviasiya bazarında digər şirkətlər yoxdur. Yeganə, monopolist şirkət budur. Əgər digər şirkətlərə burada fəaliyyət imkanı verilsə, əlbəttə, qiymətlər belə yüksək olmaz. Düzdür, AZAL çox yaxşı işləyir, rahatlıq, keyfiyyət yüksək səviyyədədir, müasir təyyarələr gətirilib. Amma problem yalnız qiymət sarıdandır. Qiymət də o zaman yüksək olur ki, orda monopoliya var, alternativ yoxdur, insanlar mövcud qiymətlə razılaşmağa məcburdur. Görünür, bazara başqa şirkətləri buraxmaq AZAL-a sərf etmir. Bunu istəmirlərsə, onda məsələyə dövlət qarışır və qiymətlərə də dəyişiklik ediləcək.

*- Qiymətləri hansı həddə qədər endirmək mümkündür ki, həm insanlar razı qalsın, həm də AZAL qazansın?*

- AZAL-da qiymətlər hətta 40-50 faiz aşağı salınmalıdır. AZAL rəhbərliyi öz dediklərini sübut etməlidir ki, qiyməti məsələn, 20 faiz endirsə, müəssisə zərərlə işləyəcək. Prezident də qeyd edirsə ki, bütün təyyarələr, yanacaq dövlət tərəfindən verilir, deməli, əlavə müzakirəyə ehtiyac qalmır.

*- Dərman bazarında nə gözlənilir. Reallıq budur ki, vətəndaşlar çox narazıdır...*

- Bəli. İnsanlar üçün bu dəqiqə ən vacib məsələlərdən biridir. Hətta çörəkdən sonra ikinci gələn dərmandır. Dərman qiymətlərini bu səviyyədə saxlamaq, əlbəttə, qəbuledilməzdir. Milli Məclisin iclaslarında mən mütəmadi olaraq bu məsələlərə toxunmuşam, siz də şahidsiniz. Mən özüm də dərmanlardan istifadə edirəm və qiymətlərin nə qədər yüksək olduğunu bilirəm. Müəyyən şirkətlər qiymətlərin tənzimlənməməsindən istifadə edərək dərmanları çox yüksək qiymətə insanlara satırlar. Hələ dərmanın keyfiyyəti bir yana qalsın. Dərman qiymətlərinin yuxarı həddi mütləq müəyyən edilməlidir ki, ondan yuxarı qiymətə satılmasına icazə verilməsin.

*- Niyə Azərbaycan bu dərəcədə bahalı ölkədir, bunun bir əsaslandırması varmı?*

- Qiymət siyasətində Azərbaycanda özbaşınalıq həddindən artıq çoxdur. Düzdür, bazar iqtisadiyyatıdır. Amma bazar iqtisadiyyatı anarxiya deyil. Əgər bazar iqtisadiyyatında alternativ mənbələr, şirkətlər yoxdursa, orda mütləq monopoliya olacaq. Rəqabət mühiti yaradılmayıbsa, o, istədiyi qiyməti qoyacaq. Mən dərmanlarımı Türkiyədən gətizdirirəm, ordan alıram. Türkiyədə dərmanlarıma təxminən 100 lirə xərcləyirəmsə, Azərbaycanda mən həmin dərmanlara 300 manata yaxın ödəyirəm. Yəni qiymət siyasətinə mütləq baxılmalıdır.

*- Turizm sahəsində də vəziyyət bəllidir...*

- Bəli. Niyə insanlar daha çox Türkiyəyə, Gürcüstana qaçır, Azərbaycanda heç kim istirahət etmək istəmir? Regionlarda bir gecə qalmaq üçün hardasa 100 manata yaxın vəsait xərcləməlisən. Buna çoxlarının imkanı yoxdur. Son vaxtlar Bakıda, bölgələrdə xeyli yüksək keyfiyyətli, "beşulduz" otellər tikilib, amma qiymətlər yenə aşağı salınmır. Yəqin bu sahədə də tənzimləmə olacaq.

*- Siz harda dincəlməyi düşünürsünüz?*

- Mən hələlik burdayam. Müəyyən müddət də Qubada olacağam. Bilirsiniz ki, anam rəhmətə gedib. Avqustun 1-i anamın 40 mərasimidir, orda olacağam. Həm də seçicilərimlə görüşürəm, müəyyən işlər görürük. Mən ayda bir, ya iki dəfə rayonda seçicilərlə görüşürəm.

*- Qubada indi durum necədir?*

- Qubada da müəyyən problemlər mövcuddur, insanların iş problemi xüsusilə. Rayonda üç konserv zavodu var, cəmi biri işləyir. Hansı ki, həmin zavodlar özəlləşdirilib, sahibləri isə istifadəyə vermir. Düzdür, son vaxtlar Qubada çox işlər görülüb, yol təmiri, su, istilik, elektrik enerjisi təchizatı sahəsində... Hətta Qubanın kəndlərinə su çəkirik, uşaq bağçaları tikirik. Ən ciddi problemimiz iş yerinin azlığıdır. Ümumiyyətlə, şimal regionunda bu problem yaşanır.

*- Camaatın seçkiyə münasibəti necədir? Sizi parlamentdə görmək istəyirlərmi?*

- Qubada seçki həmişə demokratik keçib. 2005 və 2010 seçkilərində ordan seçilmişəm, ciddi rəqiblərim də olub. Amma insanlar hamı seçkiyə gəlib, səs verib. Orda başqa söhbət ola bilməz. Mənə də münasibətləri normaldır. Yəqin ki, bu dəfə də seçkidə iştirak edəcəyəm.

*- "Yeni Müsavat"ın baş yazarı Rauf Arifoğluna "Əməkdar jurnalist" adının verilməsi ötən həftə ölkənin az qala bir nömrəli müzakirə mövzusuna çevrildi. Fərqli münasibətlərlə, yəqin ki, tanışsınız, siz bu barədə nə düşünürsünüz?*

- Mən mətbuatı, saytları mütəmadi izləyirəm. Rauf Arifoğlu ilə əlaqədar da öz tərəfdaşları tərəfindən müəyyən qınaqlara rast gəldim. Amma mən o qınaqları qəbul etmirəm. Rauf Arifoğlu Azərbaycanda tanınmış jurnalistdir və 26 ildir ki, bu həyatı yaşayır. Özü də deyərdim ki, ağır həyatı da yaşayıb. Yəni zindan həyatını da görüb. "Yeni Müsavat" qəzetinin ağır vaxtları da mənim yadıma gəlir, o dövrlərdə də çalışıb, bu qəzeti saxlayıb. Həmişə də qəzetdə Azərbaycanın ictimai-siyasi həyatını normal şəkildə işıqlandırmağa çalışıb. Cənab prezidentin ona mükafat verməsi ilə əlaqədar müəyyən tənqidlərə məruz qaldı. Mən tənqidləri qəbul etmirəm. Birincisi, bunu dövlət başçısı təqdim edib. Bəzi müxalifət təmsilçiləri qəbul etsə də, etməsə də, mən həmişə demişəm, dövlət başçısı Azərbaycanın rəmzidir. Əgər o, hansı bir jurnalistə ad verirsə, bunu qəbul etmək onun borcudur. Rauf Arifoğlu buna layiq olmasaydı, heç bu adı ona verməzdilər. Rauf bəy uzun müddət Müsavat Partiyasının üzvü olub, bu yaxınlarda ərizə verib çıxdı. Bu partiyanın inkişafında, ayağa durmasında, ictimailəşməsində məhz "Yeni Müsavat" qəzetinin böyük rolu olub, bunu da başa düşmək lazımdır. Mən Rauf Arifoğlunu təbrik edirəm, ona cansağlığı, uzun ömür arzulayıram, Azərbaycanın ictimai-siyasi həyatında daha fəal olmağa, o cümlədən də Azərbaycanın reallıqlarını həm dünya ictimaiyyətinə çatdırmağa, həm ölkə daxilində gedən prosesləri daha da real işıqlandırmağa çağırıram. Tutaq ki, Rauf Arifoğlu da bu gün reallığı nəzərə almayıb müəyyən fərqli addımlar ataydı. O halda onun qəzeti də, rəhbərlik etdiyi saytlar da bu gün fəaliyyət göstərə bilməzdi, xeyli jurnalist də bu iş yerindən ailəsinə çörək apara bilməzdi. Bu, kimə lazımdır? Son vaxtlar bəzi müxalifət partiyaları ilə hökumət arasında dialoq gedir, müəyyən təmaslar var. Mən həmişə bunun tərəfdarı olmuşam. Bu gün də alqışlayıram ki, Azərbaycanın dövlət başçısının göstərişinə uyğun olaraq hökumət belə müsbət addımlar atır. Belə addımları qiymətləndirmək lazımdır. Çünki biz hamımız azərbaycanlıyıq, bir dövlətdə yaşayırıq, onun yaxşısı da bizimdir, pisi də, ona qiymət vermək lazımdır.

*- Vahid bəy, iqtidar-müxalifət münasibətlərinin normallaşdırılması üçün bu gün hansı addımların atılmasını zəruri sayırsınız?*

- Mən bir millət vəkili, bir azərbaycanlı olaraq, Azərbaycanın müstəqilliyinə səs verən şəxs olaraq istəyirəm ki, həbsdə heç kim qalmasın, siyasi əqidəsinə görə kimsə həbs edilməsin. Son vaxtlar müəyyən addımlar atılır. Elə müxalifət partiyaları ilə görüşlər, mətbuata diqqət bir daha onu göstərir ki, dövlət başçısı, hökumət cəmiyyətdə ümumi razılığın olması üçün müəyyən addımlar atır. Bizim Qarabağ kimi böyük bir problemimiz var, bu problem həll olunmalıdır. Bu problemin ətrafında elə diskussiyalar aparılmalıdır ki, insanlar bir yerdə olsun. Biz daxildəki narazılıqları, nöqsanları beynəlxalq ictimaiyyətə çatdırmaqla heç nə udmuruq, bunlar içəridə həll olunmalıdır. Əlbəttə, mən istərdim ki, müxalifət güclü olsun. Çünki müxalifət nə qədər güclü olsa, hökumət bir o qədər bunu nəzərə alır, onu dinləyir, fikirlərini müəyyən qədər qəbul edir.

*- "Şimal küləyi", adətən, bizi də vurur. Rusiyada dollar yenə də rubla üstələdi. Manatı növbəti devalvasiya gözləyirmi?*

- Biz çox vaxt deyirik, bəziləri də bunu düzgün başa düşmür. Neftin qiymətinin dəyişməsi bütün dünyaya təsir edir. Son vaxtlar neftin dünya bazarında qiymətinin hətta 54 dollara yaxınlaşması rubla ciddi təsir etdi. Bu, bir daha onu göstərir ki, Rusiya dövləti də müəyyən proseslərə cəld reaksiya verməlidir. Deyirlər iqtisadi məsələdir. Heç bir iqtisadi məsələ yoxdur, siyasi məsələdir. Rusiya ilə Ukrayna arasında qazla əlaqədar ciddi problemlər yaranıb. Azərbaycan qazının ixracı ilə bağlı da bizə müəyyən təhdidlər var. Biz bütün müqavilələri imzalasaq da, Azərbaycan qazının ixracına əngəllər törədilir. Yəni baş verən hadisələr, əlbəttə, bizə təsir edəcək.

*- Böyük təhlükə gözləniləndirmi, xüsusilə də müstəqilliyimizlə bağlı?*

- Yox, mən müstəqilliyimizə heç bir təhlükə gözləmirəm. Azərbaycan müstəqil dövlətdir, dövlət başçısı müstəqil siyasət aparır. Açığını deyim, bu balans siyasəti məni çox qane edir. Çünki bölgədə başqa cür siyasət aparmaq mümkün deyil. Yoxsa bizi də Ukrayna və Gürcüstanın taleyi gözləyə bilər. Faktiki olaraq biz bunlardan çıxmışıq. Bizim Qarabağ problemimiz var və s. Amma hesab edirəm ki, neftin qiymətinin kəskin aşağı düşməsi digər dünya dövlətləri kimi, Azərbaycana da müəyyən təsirini göstərəcək. Artıq 6 ayda bunu gördük. Yarımilin yekunlarına görə dövlət büdcəsində 770 milyon manat kəsir əmələ gəlib. Dövlət Neft Fondundan daxilolmalar azalıb.



**"Neftin qiyməti hətta 40 dollara düşə bilər..."**

*- Bu dalğa manatı növbəti dəfə vura bilərmi?*

- İnanmıram. Yəqin ki, ilin axırınadək manat özünü qoruyub-saxlayacaq. Bu, gedən proseslərdən də asılıdır. Bir də bank sistemində müəyyən sağlamlaşdırma prosesi gedir. Əgər bu proses davam edəcəksə, banklar bəzi məsələləri həll edəcəksə, vaxtı keçmiş kreditlərin qaytarılması məsələsi həllini tapacaqsa, müəyyən problemlər aradan qalxacaq. İnsanlar başa düşməlidir, krediti götürmüsənsə, qaytarmalısan, hansı fazilə, necə verilib, dəxli yoxdur. Krediti götürəndə fikirləşməlisən ki, bunu qaytara biləcəksən, ya yox? Ümumiyyətlə, bank sistemində müəyyən islahatlara ehtiyac var və alqışlanası haldır ki, bu islahatlara başlanılıb. Məni narahat edən ən ciddi məsələ neftin qiymətidir. Fikir verirəm, Liviyada da şərait yaxşılaşır, neftin istehsalı artır. İkincisi də "altılıq"ın razılaşmasından sonra İran neftinin dünya bazarına çıxarılması neftin qiymətinə təsir edəcək. Ola bilər qiymət hətta 40 dollara düşsün. Yadıma gəlir, 80-86-cı illərdə SSRİ-ni çökdürmək istəyəndə neftin qiyməti gəlib 20 dollara düşdü. İndi də sanki həmin proses gedir. Rusiya rəsmiləri də anlamalıdır ki, bu prosesdən yalnız Rusiya ziyan çəkmir, odur ki, müəyyən razılıqlara gəlinməlidir. Əks təqdirdə neftin qiyməti ilə əlaqədar bütün dövlətlərdə problemlər yaşana bilər...

❑ **Elşad PAŞASOY**



# Kökə kimi ölkə

Zamin HACI
zaminhaci@gmail.com

"Gurultulu olsa da, diqqətlə etsən nəzər,
Xeyri yoxdur o səssiz, vüqarlı çəllək qədər.
Tutduğu işdə hər kim böyük səs-küy qoparır,
İnan ki o adamın faydası, xeyri azdır!"

***(İvan Krılov, "İki çəllək")***

Təzəlikcə şimal tərəflərə yolum düşmüşdü. Açığı, ölkəmiz elə balacadır ki, bu "tərəflər" sözünü yazanda bir az adamın qıdığı gəlir. Kaş Bütöv Azərbaycan qurulmasını görəydik, bizim də bir geniş dövlətin ucu-bucağı görünməyən ərazilərinə baxıb sevinmək imkanımız olaydı. Yoxsa indiki kimi... Bir şəhərdən, bir meqapolisdən bezəndə başqasına getmək imkanı yoxdur. Başqalarını deyə bilmərəm, ən azından jurnalistlər üçün fəlakət durumdur, çünki qəzet çıxan yeganə ərazi Bakıdır. Amma böyük ölkəmiz olsaydı çıxıb gedib Təbrizdə qəzet yazardıq. Nə isə, tərəf məsələsi çox uzandı.

Demək, Xaçmaz istiqamətinə gedən bütün avtobusların 5-10 dəqiqəlik istirahət üçün dayandığı yeganə məntəqə Siyəzəndəki Beşbarmaq pirinin ətəyidir. Elə avtobus sürücüləri də minik zamanı belə elan edirlər: "Bir də pirdə saxlayacağıq". Amma bu "pir" deyilən yerin nə gündə olduğunu respublikanın başbilənlərindən kimsə görməyibmi? Natəmizlik, tam antisanitariya, zir-zibil içində bişirilən kabablar, düz yolun içində qaynayan qarğıdalı qazanları, səs-küy, pis qoxular... Düzü, mən bilmirəm bu obyekt ümumən kimin balansındadır. Ziya Məmmədovun, yoxsa Allahşükür müəllimin? Bəlkə hər ikisinin? Bütün hallarda, adam orda dayananda belə ölkədə yaşadığına utanır.

Təsəvvür edin, 25 qəpiklik qazsız suyu dükanlarda 40 qəpiyə satırlar. Qalan hər şey də bu cür bahadır. İstər-istəməz düşünürsən: əgər bu pirdə kəramət varsa, niyə bunun böyründə dükan işlədən bu soyğunçulara təsir göstərib onları adam eləməyib?

Əlbəttə, başa düşürəm Beşbarmaq piri dayanacağında qayda yaratmaq, Avropa Oyunları keçirən respublikamızın analoqu olmayan səviyyəsinə çatdırmaq üçün bir-iki nazirliyin gücü yetərli deyildir. Bu baxımdan, xahiş edərdik cənab prezident bir müşaviridi də bu dayanacağa həsr eləsin, bəlkə bundan sonra orda vəziyyət dəyişər.

Ümumən götürəndə isə respublikamızın ictimai-siyasi həyatında böyük dəyişikliklərin astanasında olmağımız aydın hiss edilməkdədir. Zakir müəllimin azad elədiyi rayonlarda payızlıq taxıl əkinlərinə, o cümlədən faraş tərəvəz, bostan bitkilərinin yetişdirilməsi işlərinə, yoncanın üçüncü çalımına hazırlıq gedir. Bir qohum var, dünən Kəlbəcərdən zəng vurub deyir ki, atın ipini bir az da uzatdım, indi Ağdərədə subalp çəmənliyində otlayır. Başqa bir qohum isə sraağagün dükanda pivə aldığım yerdə yaxamdan yapışıb nə desə yaxşıdır? "Sən heç bilirsənmi milli ideya nədir?". Dedim vallah, billah, mənim elənçik ziyalı söhbətlərindən qandığım qrafa yoxdur. Mən nə bilim ideya nədir?

Hər halda, arzu edərdik ASAN-xidmətin səyyar avtobusları Zəngilanın Pirçivan məntəqəsinə, Qubadlının Aşağı Mollu kəndinə, Ağdama, Füzuliyə, Malıbəyli kəndinə də getsin. Yoxsa Zakir müəllim yüksək döyüş hazırlığı ilə ordunu ayağa qaldırıb, torpaqlarımızı artıq 3-cü dəfə azad etmişdir (adamın vəzifəsi budur, daim azad etməlidir), lakin orda bəzi sakinlər hələ də uşağın sünnət kağızına peçat vurdura bilmir. Sabah belə prosedurlar dövlətçiliyimizə çətinliklər yaradacaqdır.

Ancaq etiraf edim ki, hər dəfə bu "yüksək döyüş həyəcanı ilə ordu ayağa qalxıb" tipli cümlələr eşidəndə bir əsgərlik xatirəsi yadıma düşür. Uzun, qaranlıq bir blindajımız var idi, bütün bölük yerləşən bu qazma qabaqlar çobanların qoyun damı olmuşdu. Taborun bir dükana bənzər yeri var idi, əsgərlər ordan 20 qəpiyə "bakkuş" deyilən kökəyə bənzər yemək alırdılar. Pul hamıda olmazdı, o üzdən bəzi əsgərlər "bakuş"u gizli alıb gecə hamı yatandan sonra yemək istərdilər. Amma bu kökənin örtüyü çox satqın örtük idi. Çavuşlar "yatın" komandası verib diqqətlə qulaq asardılar. Bir də eşidərdin kimsə yataq örtüyünün altında kökəni "xışıldadır". Bah! O anda elə bil İkinci Dünya Savaşı başlanırdı! "Döyüş həyəcanı" komandası verilir, bölük ayağa qaldırılır, "bakuş" yeyən əsgər tapılıb çox pis cəzalandırılırdı. Bizim bölüyün hər gecə minimum 1 dəfə "trevoqa"sı olmalıydı.

Kökə həmin kökədir, ölkə də həmin ölkədir. Bir az fərqi var ki, indi həyəcan siqnalını kökə oğruları özləri verir.

# Münaqişə ətrafındakı situasiyada təhlükəli dönüş

**Ötən həftə Qarabağ məsələsi ətrafında həm diplomatik, həm də hərbi alanda əhəmiyyətli hərəkətliliklə yadda qaldı. Həftənin əvvəlində ATƏT-in Minsk Qrupunun həmsədrləri və Avropa Birliyi Şurasının sədri Donald Tusk İrəvan və Bakıda oldular, həftəsonu isə atəşkəs rejimi qəfildən, növbəti dəfə təhlükə altına düşdü.**



# "Qarabağ danışıqları"na generallar qoşulur

## Kreml və İrəvan Bakı əleyhinə yeni anlaşma içində; Putinin kəşfiyyat generallarını Ermənistana yollamasının pərdəarxası; KTMT baş katibi Bordyujadan bir gün sonra QRU başçısının da İrəvana getməsi təsadüfdümü? Rusiya "bir güllə ilə 3 dovşan" hədəfləyib...

Artıq neçə həftədir ki, həmsədrlər, xüsusən də amerikalı vasitəçi Ceyms Uorlik danışıqları dalandan çıxarmaq üçün diplomatik səyləri artırıblar. Vaşinqtonda, Moskvada, Vyanada keçirilən və ilk dəfə olaraq Minsk Qrupunun digər üzvlərinin də cəlb olunduğu intensiv müzakirələrin başlıca hədəfi isə qısa zamanda Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü təşkil eləməkdir.

Artıq görüş üçün prezidentlər İlham Əliyevin və Serj Sərkisyanın razılığı alınıb. Hər halda həmsədrlərin son birgə bəyanatında belə deyilir. Həmin bəyanatda qırmızı xətt kimi keçən məqam isə yeni konfrontasiyalardan qaçmaqla bağlı tərəflərə edilən çağırışlardır. Vasitəçilər ümid edirlər ki, prezidentlərin görüşünə hazırlıq getdiyi dönəmdə tərəflər heç bir eksesə yol verməyəcək.

****

Lakin nikbin gözləntilərə rəğmən, cəbhə xəttində vəziyyət təzədən gərginləşib. Bu dəfə Gədəbəy istiqamətində. Hər iki tərəfdən, daha çox da düşmən cinahından yeni canlı itkilərin olduğu bildirilir. Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatına görə, düşmən 5 hərbçisini itirib. Bir şəhid də biz vermişik, təəssüf ki.

Maraqlıdır ki, təmas xəttində növbəti eskalasiyanın yaşanması fonunda Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, Baş Kəşfiyyat İdarəsinin (QRU) rəisi, general-polkovnik İqor Serqun nümayəndə heyəti ilə birgə İrəvana səfərə gəlib. Musavat.com-un erməni qaynağına istinadən verdiyi xəbərə görə, QRU rəhbəri Ermənistan rəhbərliyi və müdafiə naziri ilə görüşüb. Rəsmi bilgilərə görə, tərəflər regional və beynəlxalq əhəmiyyətli bir sıra mövzuları, həmçinin, yaranmış vəziyyətdə iki ölkə arasında təhlükəsizliyin təmin edilməsi çərçivəsində əməkdaşlığın inkişafı ilə bağlı məsələləri müzakirə ediblər.

Təbii ki, aparıcı mövzu kəşfiyyat məlumatlarının mübadiləsi və Putinin məxsusi çatdırışları ətrafında olub. Araşış üçün bildirək ki, QRU hazırda Rusiyanın Ukraynaya qarşı tətbiq etdiyi "hibrid müharibə" taktikasının əsas elementidir. Bu məxfi kəşfiyyat idarəsinin xüsusi təyinatlı diversiya bölmələri Krımı ildırım sürəti ilə zəbt edib, daha sonra Ukraynanın Şərqində diversiya əməliyyatları həyata keçirərək yerli separatçı dəstələrə Donetsk və Luqansk vilayətlərinə nəzarəti ələ almağa yardımçı olub.

***

Qayıdaq bölgəmizə. Başqa bir diqqət çəkən məqam general Serqundan bir gün öncə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi, general Nikolay Bordyujanın da İrəvanda səfərdə olmasıdır. Doğrudur, Bordyuja İrəvana tez-tez baş çəkir. Ancaq budəfəki səfər Qarabağ diplomatiyasının aktivləşməsi dövrünə düşməsi ilə qeyri-adi təəssürat yaradır.

Bəs Putinin bir-birinin ardınca öz generallarını İrəvana göndərməsinin arxasında hansı maraqlar dayanır?

Bir amilə toxunuldu - təmas xəttində hərbi eskalasiya. Aydındır ki, kifayət qədər ərazi zəbt eləmiş Ermənistana yeni müharibə lazım deyil. O zaman sual ortaya çıxır ki, gərginliyi, təxribatları kim yaradır?

Bu sualın ilkin cavabını başqa bir istiqamətdə axtarmağa dəyər. İş ondadır ki, Moskva Ermənistana 200 milyon dollarlıq kredit verməklə və Azərbaycanla hərbi balansı saxlamaq adı ilə bölgədə qorxunc "İsgəndər M" (daha doğrusu, "İsgəndər E") taktiki raket kompleksləri yerləşdirmək arzusundadır. Amerikalı hərbi analitiklərə görə, nüvə başlıqları belə daşıya biləcək bu kompleksləri işğalçı Ermənistanda yerləşdirməklə Rusiya bütövlükdə regionda ciddi şəkildə möhkəmlənmək niyyəti güdür. Güman eləmək olar ki, son vaxtlar Azərbaycan-Türkiyə-Gürcüstan hərbi əməkdaşlığının güclənməsi də Kreml qarşısında belə bir imperativi başqa yandan zəruri edib.

Ola bilsin, Moskva Ermənistanın maraqlarından qat-qat çox öz maraqlarına hesablanmış "İsgəndər" komplekslərini işğalçı ölkədə yerləşdirməklə bağlı hazırda İrəvanla intensiv zondaj aparır, onu inandırmağa çalışır. Cəbhə xəttindəki eskalasiya fonunda isə inandırma daha asan baş tuta bilərdi. Bordyujadan dərhal sonra QRU başçısının böyük bir nümayəndə heyəti ilə İrəvana gəlməsi də təmas xəttindəki yeni qarşıdurmalara görə narahatlıqdan daha çox, bu inandırmanı effektli eləmək məramından qaynaqlana bilər. Burdaca yada salaq ki, Dağlıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyan Rusiya kəşfiyyatının adamıdır (Ona "Kremlin tulası" da deyilir).

***

Generalların səfəri həmçinin, Bakı-Supsa neft kəmərinin Gürcüstanın işğal altındakı ərazisindən keçən hissəsi ətrafında yaranmış gərgin duruma təsadüf etməsi ilə maraq doğurur. Yada salaq ki, rus əsgərləri işğal altındakı Cənubi Osetiyada "sərhəd" göstəricilərini Gürcüstan içərilərinə doğru çəkdikləri zaman Ermənistan da öz tərəfindən Gürcüstan ərazisinin 10 hektar torpağını zəbt edib.

Ermənilər bunu, əlbəttə ki, rusun "dobro"su olmadan edə bilməzdilər. İstisna deyil ki, Rusiya Cənubi Osetiyadakı avantüra ilə yanaşı, Ermənistanın da əli ilə Gürcüstanı təxribata çəkmək istəyir. Generalların, xüsusən də QRU başçısının səfəri mümkündür ki, həm də bu mövzu ətrafında olsun.

Nəhayət, rus generallarının Ermənistana artan səfəri Kremlin Qarabağ məsələsində öz patronajlığını qoruyub saxlamaq niyyətindən də qaynaqlana bilər. Bunun üçün ötən ilin avqustunda olduğu kimi, vəziyyəti bir az tündləşdirib, ardınca prezidentləri "zəruri anda" Moskvaya çağırmaq yetər.

***

Belə görünür, indiki mürəkkəb mərhələdə Moskva bir güllə ilə "3 dovşan" vurmağı hədəfləyib: 1. Ermənistanda özünə qarşı baş qaldıran narazılığı elə ən çox özünə xeyirli olan 200 milyonluq kreditlə səngitmək; 2. Bölgədə həmişəlik möhkəmlənmək və qonşu dövlətləri daha ciddi təhdid altında saxlamaq üçün "İsgəndər" komplekslərinin yerləşdirilməsinə nail olmaq; 3. Qarabağ vasitəçiliyində üstünlüyü heç kimə verməmək, heç kəslə bölüşməmək.

❑ **Analitik xidmət**



# O, sizə "İstiqlal" ordeni verdirmək istəyirdi...

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Bu günlərdə Rauf Arifoğlunu "Əməkdar Jurnalist" adını aldığı üçün hədəfə alanların arqumentlərini oxuduqca bilirsiniz yadıma nələr düşür? Mərhum prezident Heydər Əliyevi Bakıya dəvət edib birlikdə qiyamı yatırmaq, qiyamçıları susdurmaq üçün əməkdaşlıq təklif edənlərin sonradan vəzifəsini dondurmaları, hakimiyyətdən getmələri.**

Sonra bilirsinizmi nəyi xatırlayıram: Müxalifətin MSK-nın toplantılarını boykot etmələri, daha sonra mandat qazanan siyasətçilərimizin seçicinin onlara verdiyi halalca mandatdan imtina edib partiya qərargahlarında qapanıb qalmalarını, daha sonra...Belə nümunələr yaxın-uzaq keçmişimizdə çox oldu, lap çox. Elə bunun məntiqi nəticəsidir indiki situasiya. Səhvlər kifayət qədər çox oldu...

Real situasiyanı dərk etməyə çətinlik çəkənlər Rauf Arifoğlunun sabiq səfir Steynar Gilə açıq məktubunu oxusun: "İndi Azərbaycan mediası tamamilə tək və yetim qalıb, artıq Bakıda Steynar Gil də yoxdur. Qərb paytaxtları İlham Əliyev hakimiyyəti ilə iş birliyini davam etdirir, onlara sanki Azərbaycanda müxalifət lazım deyil. ABŞ-ın, Böyük Britaniyanın radioları, televiziyaları bağlanıb, bəzi əməkdaşları istintaqa cəlb edilib. Onların hökumətləri hətta heç öz KİV-lərini qoruya bilmirlər..." Reallıq budur. Gil Avropadan bizim reallığı tam görməyə bilər, amma bizim dostların görməməsi, bu, ciddi qüsurdur...

Rauf Arifoğlu nə günah iş görüb ki? İllərdir rəhbərlik etdiyi qəzet iqtidar-müxalifət dialoqunun, barışın zəruriliyindən yazır, qızıl amnistiyanın verilməsindən, siyasi motivlərlə həbs olunanların azadlığa buraxılmasının dövlətimiz və millətimiz üçün fayda verəcəyindən bəhs edir. Bütün bunlardan sonra əgər ölkə prezidenti 180 jurnalistdən biri kmi onu da təltif edirsə, burda bəd niyyət axtarmağın yeri yoxdur. Baş redaktor o mükafatı qəbul etməklə sadəcə prinsiplərinə sadiqlik nümayiş etdirib. Barışı seçib, hətta onu bir vaxtlar həbs edən hakimiyyətlə də barışa hazır olduğunu nümayiş etdirib. Bəlkə də bununla öz reputasiyasını o qədər də nəzərə almayıb, ümummilli maraqları, ağır durumda on illərdir yaşayan müxalifətçilərin taleyini düşünüb. Bu cəmiyyətdə barış olacaqsa, o halda hər kəs ondan faydalanacaq. Eyni zamanda "Yeni Müsavat" da ayaqda qalacaq. Sadə vətəndaşdan tutmuş, imkanlı iş adamlarına, siyasətçilərə qədər haqları pozulanların istənilən vaxt qapısını döydüyü, dərdini dediyi 26 yaşlı bir qəzet! Özü də prezident mükafatı verəndə demədi ki, daha yazmayın. Əksinə, dedi gerçəkləri öyrənmək üçün mətbuatı oxuyuram. Yəni deyir mən sizi yazdığınız üçün mükafatlandırıram, yazmayacağınız üçün yox, elə isə yazın!

Rauf Arifoğlunun rəhbərlik etdiyi mətbu orqan bundan sonra yazmasa, o halda buyurub ittiham edərsiniz. Ancaq baş redaktor özü deyib ki, "imkanlar tükənsə və mən özümün və qəzetimin sifətini saxlaya bilməsəm, "qırmızı xətləri" gözləməyi bacarmasam, qəzetçilikdən istefa verib, media qrupumu ya satıb, ya da bağlayıb, kitablar yazacam, özümü ibadətə bir az da çox həsr edəcəyəm. Ancaq hətta o halda da ölkəmdən getməyəcək, emiqrasiya etməyəcəyəm". Tam razıyam. Biz bu Vətəni atıb getməyəcəyik, dərd-səri, ağrı-acısı, çatışmazlığı ilə bizimdir. "Yeni Müsavat" yaşamalıdır, ən azı bizim "Azərbaycan Qarabağı işğaldan azad etdi" manşetini vermək əhdimiz var. Böyük amallar uğrunda mübarizədə xırda iddialar irəli sürüb qan qaraltmazlar. Özü də Qarabağ uğrunda savaş başalayacaqsa, onu Ali Baş Komandan İlham Əliyev verəcək. İmtinamı edəcəyik? Bəlkə bu gün hansısa müxalifət lideri prezidentin imzaladığı sərəncam və fərmanları tanımır, ya məhz o imzaladığı üçün seçkilərə qatılmaqdan imtina edir? İndi nə oldu, bir baş redaktorun müstəqil dövlətinin başçısından bir medal alması bu qədər türklər demiş, "söz konusu" oldu? Rauf Arifoğlunun qəzeti illərdir dövlətə çağırış edir ki, istiqlalçı deputatlara "İstiqlal" ordeni versin, yüksək pensiya kəssin. Bu haqda qərar verilsəydi, almaqdan imtinamı edəckdiniz? O, sizə "İstiqlal" verdirmək istəyirdi, siz ona "Əməkdar"ı çox göprdünüz, təəssüf...

***P.S.**Rauf Arifoğlunun feysbuk səhifəsində bir foto var, məhbəsdə çəkilib. 4 yaşlı oğlu ilə birgə. Yazıb ki, həbs olunanda Ərhun danışa bilmirdi, ancaq artıq aylar keçəndən sonra danışır. Çox ağır mənzərədir. O fotoya baxmağın özü belə... Prezidentlə Rauf Arifoğlunun fotosunu yayıb ittiham edəndə hərdən məhbəsdəki həmin fotoya və üstündəki yazıya da baxın...*

# Yaxşı işi də pisliyə çevrilən icra başçısı

## Gədəbəydə Şəhidlər Xiyabanına köçürülən iki abidə narazılıq yaradıb...

**Gədəbəyin icra başçısı Ramiz Yediyarov məhkəmədə sahibkar Oqtay Əliyevə uduzmaqla yenidən gündəmə gəlib. 3 il əvvəl hazırda tutduğu posta təyinat alan Ramiz Yediyarov bu müddətdə mətbuatın diqqətindən çox az kənarda qalıb. Səbəb də başçının neqativ fəaliyyətidir.**

İşlədiyi dövr ərzində Yediyarovun bir dənə də olsun yaxşı işinə rast gəlmək mümkün deyil. Bu adamın indiyədək gördüyü iş yalnız rayonun əsas küçəsini yarıya qədər yüngülvari təmir etdirməsidir. Təəssüf ki, başçının bu işi də sahibkarlara, iş adamlarına problemlər yaratmaqla başa gəlib. Həmin küçədə fəaliyyət göstərən sahibkarlara zorla öz obyektlərini təmir etdirməsi başçı ilə sadə insanların münasibətlərini kəskinləşdirib.

Həmin küçədə yerləşən 2-3 inzibati binanı penoplast üzlüklə üzlətdirməsi və məlum hadisələrdən sonra üzlüklərin sökülməsi də başçının rayonda elə-belə də yerlə sürünən nüfuzuna zərbə vurub. Hazırda həmin binalar çox bərbad vəziyyətdədir. Bununla belə, icra başçısı törətdiyi çoxlu sayda qanunsuz əməlləri ilə yadda qalıb.

Əvvəla, onu qeyd edək ki, R.Yediyarov rayonda sahibkarlara divan tutmaqla onların əmlakını dağıtmaqla, obyektlərə giriş-çıxışı məhdudlaşdırmaqla, sahibkarlardan hər ay müxtəlif adlarla aylıq almaqla rayonda sahibkarlıq mühitini tamamilə məhv edib. Hazırda rayondan kənarda yaşayan heç bir iş adamı rayonda hansısa fəaliyyətlə məşğul olmaq üçün sərmayə qoymağa risk etmir.

R.Yediyarov Gədəbəyi azad sahibkarlıq fəaliyyəti üçün əlverişsiz duruma gətirib. Sahibkarlar qoyulan sərmayənin istənilən vaxt başçının tamahına qurban gedə biləcəyindən ehtiyat edib öz doğma torpaqlarında iş qurmaqdan çəkinirlər. Sahibkar Oqtay Əliyevin obyektinin sökülməsi ilə bağlı Ali Məhkəmənin qərarı Gədəbəydəki hazırkı biznes mühitinin durumun ağırlığının haradan qaynaqlanmasının əyani sübutudur. Bu qərar rəsmi şəkildə təsdiq etdi ki, R.Yediyarov sahibkarlığa nəinki mane olur, hətta onu məhv edir. Onun bu hərəkətləri, prezidentin məlum müşavirədə söylədiyi kimi, vətənə xəyanət etməkdir....

Rayon sakinlərindən aldığımız məlumata görə, başçının gördüyü çox az sayda olan yaxşı işlərdən biri də Şəhidlər Xiyabanının ərazisinin abadlaşdırılması olub. Lakin bu xoşniyyətli addım az sonra atılan addımın kölgəsində qalıb. Belə ki, bir qədər əvvəl rayon mərkəzində olan Böyük



Vətən Müharibəsi iştirakçılarının xatirə abidəsi və "Ana heykəli" sökülüb və I Qarabağ müharibəsi zamanı həlak olmuş şəhid gədəbəylilərin dəfn edildiyi Şəhidlər Xiyabanının üst tərəfinə köçürülüb. Redaksiyamıza təqdim olunan fotolardan görünür ki, yeni köçürülən abidə şəhidlər xiyabanının daha hündür hissəsinə qoyulub və kənardan baxanlar üçün elə təəssürat yaranır ki, sanki bura yeni tikilmiş abidəyə məxsus ərazidir.

Sakinlər deyir ki, Böyük Vətən müharibəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə qarşı deyillər. Amma Azərbaycan xalqı və dövləti üçün canından keçmiş şəhidlərin xatirəsindən əziz heç bir dəyər yoxdur. Respublikanın heç bir yerində Şəhidlər Xiyabanının ərazisinə hər hansı başqa abidənin yerləşdirilməsi halı yoxdur.

Sakinlər rayon ərazisində Böyük Vətən müharibəsi iştirakçılarının xatirə abidəsi və "Ana heykəli" üçün uyğun yerlər olduğu halda məhz həmin abidələrin xiyabanın ən hündür nöqtəsinə qoyulmasını şəhidlərə, şəhid ailələrinə hörmətsizlik kimi qəbul etdiklərini də gizlətmirlər. Deyirlər ki, həmin abidələr neçə illər idi ki, inşa olunduğu yerdə çox normal şəkildə qorunurdu. Sual edirlər ki, yerdəyişməyə ehtiyac var idisə, bunu bu cür mənfur qaydada etmək lazım idimi? Rayon ərazisində bu abidə üçün yer yox idimi?

Sakinlər abidələrin bu şəkildə tikilməsində başçının tamahının müstəsna rol oynadığını bildirirlər. Deyirlər ki, başçı hər qarış torpağı qənimət bilir, satışa çıxarıla bilən ərazi kimi baxır. Ona görə də abidələrə bu cür hörmətsiz münasibət göstərir.

Baş verənlərlə bağlı dövlət orqanlarına şikayətlər də nəticəsiz qalıb. Vətəndaşın qüruruna toxunan belə bır hərəkətə heç bir aidiyyəti dövlət qurumu reaksiya verməyib. "Sanki bu rayonda baş verən hadisələr Azərbaycan ərazisində yox, vergilər naziri Fazil Məmmədova məxsus feodal torpaqlarında baş verir. Görünür, həmin şəxslər hər hansı müdaxilənin F.Məmmədov tərəfdən qəzəblə qarşılanacağından və öz şəxsi bizneslərinin təhlükəyə düşəcəyindən ehtiyatlanırlar. Amma bu şəxslər unudurlar ki, hər biri dövlət başçısı qarşısında məsuliyyət daşıyırlar. Ümid edirik ki, bu yazıdan sonra respublikanın hüquq-mühafizə orqanlarının rəhbərləri, Mədəniyyət və Turizm Nazirliyi, digər qurumlar bu biabırçılığı aradan qaldıracaqlar. Vəzifəsindən asılı olmayaraq hər birimiz anlamalıyıq ki, sağ-salamat bu torpaqda yaşadığımıza görə şəhidlərimizə borcluyuq" - deyə sakinlərdən biri bildirib.

❑ E.HÜSEYNOV

# Daşkəsəndə kütləvi dava: 4 nəfər ağır yaralandı

**Daşkəsən rayonunda baş verən kütləvi dava nəticəsində dörd nəfər xəsarət alıb. Report xəbər verir ki, hadisə rayonun Əmirvar kəndinin ərazisində baş verib.**



Belə ki, Şəmkir rayonunun Könüllü kəndinin sakinləri sürülərini otarmaq məqsədi ilə heyvanlarını Daşkəsən rayonunun ərazisindəki yaylaqlara gətiriblər. İddiaya görə, yolda heyvanların bir hissəsi Daşkəsən rayonunun Əmirvar kənd sakinləri Alim Alıyev və Fariz Məmmədova məxsus torpaq sahələrinə keçiblər.

Nəticədə çobanlarla torpaq sahibləri arasında yaranan mübahisə münaqişəyə çevrilib.

Kütləvi dava nəticəsində 1990-cı il təvəllüdlü Alim Alıyev beyin silkələnməsi diaqnozu ilə Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına çatdırılıb.

Kəllə-beyin travması alan Fariz Məmmədovun vəziyyətinin ağır olduğu və Bakıya göndərildiyi bildirilir.

Daha iki həfərə ambulator yardım göstərilib.

Fakta bağlı Daşkəsən Rayon Polis Şöbəsində araşdırma aparılır.

YENİ MÜSAVAT
N 161 (6189) 27 iyul 2015

**Türkiyə dövləti İŞİD və PKK terrorçu təşkilatlarına qarşı əməliyyatları davam etdirir. Ötən həftə Şanlıurfanın Suruç qəsəbəsində solçu gənclərin toplantısının İŞİD terrorçusu tərəfindən partladılmasından sonra ölkədə artan gərginlik hökuməti hərəkətə keçirdi. Ankara əvvəlcə PKK silahlılarına qarşı həbsləri başlatdı. Bunun ardınca isə PKK hökumətlə bir neçə ildir davam edən atəşkəsə birtərəfli qaydada son qoyduğunu bildirərək hökumət qüvvələrinə hücumlar etdi.**



# "Türkiyədən sonra hədəf Azərbaycan yox, İran ola bilər"

## Ərəstun Oruclu: "Ankara özünə rəva görə bilməz ki, onun ərazisini terrorçular döyüş meydanına çevirsinlər"

Həftəsonu isə İŞİD-in Türkiyə-Suriya sərhədində Türkiyə ordusuna hücum etməsi Ankaranın bu terror təşkilatına qarşı təmkinli davranışına son qoydu. Türkiyə ordusu havadan və ağır artilleriya vasitəsilə Suriya ərazisindəki İŞİD mövqelərini vurmağa başladı. Baş nazir Əhməd Davudoğlu bəyan edib ki, Türkiyə təyyarələri ölkənin təhlükəsizliyini təmin etmək üçün Suriyada İslam Dövləti qruplaşması və İraqın şimalındakı kürd silahlılarının mövqelərinə qarşı hava hücumları həyata keçirib.

Eyni zamanda baş nazir ölkə boyu keçirilən axtarış-əməliyyat tədbirləri nəticəsində İŞİD və PKK-ya üzv olmaqda şübhəli bilinən 590 nəfərin saxlanıldığını bildirib. Hava zərbələri həftə sonu hər gün davam edib. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu isə Suriyada "tampon bölgə", yəni mühafizə olunan ərazi yaradılması planının gerçəkləşdiriləbiləcəyini deyib.

Qeyd edək ki, ötən həftə ABŞ və Türkiyə prezidentləri arasında telefon danışığı olub, liderlər Yaxın Şərqdə terrora qarşı fəaliyyəti müzakirə ediblər. Eyni zamanda mətbuatın yazdığına görə, Ankara uzun müddət isrardan sonra İncirlik Hava Bazasının İŞİD-ə qarşı hava zərbələrində istifadəsi üçün ABŞ ordusuna müvafiq razılıq verib.

Ancaq eyni zamanda bu əməliyyatların başlaması, yeni terror dalğasının başlamasına işarədir. Türkiyənin Yaxın Şərqin bir sıra ölkələrində qanlı zorakılıq aksiyaları həyata keçirən İŞİD-lə mübarizəyə başlaması təkcə ölkə üçün deyil, eyni zamanda bütövlükdə Azərbaycan da daxil olmaqla regiona yeni təhlükə riski gətirir.

Politoloq Ərəstun Oruclu deyir ki, Türkiyəyə qarşı terror təhdidinin artması Ankaranı bu cür kəskin addımlara vadar etdi. Ancaq ekspertin fikrincə, söhbət heç də iki terror təşkilatının fəaliyyətindən getmir, həm də Ankaraya qarşı düşünülmüş provokasiyadan gedir: "Əslində əməliyyatı Türkiyə başlamadı. Biz gördük ki, bir neçə müddətdir İraq və Suriyada davam edən İŞİD-kürd qarşıdurması Türkiyənin ərazisinə keçirildi. Bu artıq şərti desək, Türkiyəni Suriya və İraqa çevirmək cəhdi idi. Hər ikisinin, yəni həm İŞİD-in, həm də PKK-nın eyni vaxtda Türkiyə ərazisində təxribatlara başlaması göstərdi ki, bu iki qurum yalnız bir-birinə qarşı deyil, həm də Türkiyə ordusu və polisinə qarşı hücumlar təşkil edir və iki təşkilat eyni sponsorlar tərəfindən idarə olunur. Və bu sponsorların Türkiyə ilə bağlı sifarişləri, böyük ehtimalla, bölgədəki yeni geosiyasi durumla bağlıdır. Əslində də gözlənilən idi. Türkiyənin son həftələrdə müəyyən məsələlərlə bağlı qərarlarına yenidən baxması, məsələn, "Türk axını"ndan imtina etməsi, Suriyanı Rusiya tərəfindən Avrasiya İttifaqına inteqrasiya etmək cəhdləri və digər məqamlar oldu. Bütün bunlar göstərdi ki, bölgədə bizim ehtimal etdiyimiz və düşündüyümüzdən də mürəkkəb geopolitik konfiqurasiya yaranır. Təbii ki, belə olan hallarda və ümumiyyətlə, istənilən geosiyasi yerdəyişmələrdə, transformasiyalarda müxtəlif fəsadlar üzə çıxır. Qarşıdurmalar, sərhədləri yenidən cızmaq cəhdləri, separatçılıq, terrorçuluq hamısı bu işlərdə vasitələrdir".



Ə.Oruclu deyir ki, Türkiyənin həm İŞİD-ə, həm də PKK-ya qarşı hərbi əməliyyatlara başlaması təkcə o təşkilatlara zərbə vurmaq, onların infrastrukturlarını məhv edib gücünü zəiflətmək məqsədi güdmür, həm də bir mesaj xarakteri daşıyır: "Yəni Ankara terrorun sponsorlarına mesaj verir ki, mən Əsəd deyiləm, İraq və ya Suriya deyiləm, bu məsələdə kifayət qədər ciddi addımlar atmağa hazıram və atacağam. Bu da təbiidir. Çünki Türkiyə dövləti özünə rəva görə bilməz ki, onun ərazisini terrorçular öz aralarında döyüş meydanına çevirsinlər".

Əməliyyatların Ərdoğan-Obama danışıqlarından sonraya təsadüf etməsinə gəlincə, ekspert deyir ki, Ankara bu əməliyyatların sonrakı mərhələsi ilə bağlı qarantiya almağa çalışır. Onun fikrincə, son həftələrdə İŞİD və PKK-nın Türkiyə ərazisində fəallaşması sifarişin nəticəsi ola bilərdi: "Təbii ki, belə bir əməliyyata başlamamışdan öncə Türkiyənin - həm də istənilən dövlətin - öz müttəfiqləri ilə müəyyən məsləhətləşmələr aparması tamamilə təbii haldır. Türkiyə NATO-nun üzvüdür. Yəni məsələn, sabah Suriyada terrorçu qruplara qarşı əməliyyata başlayanda buna Bəşər Əsəd rejimi reaksiya verə bilər. Bu halda Türkiyəyə ciddi təminatlar lazımdır. Düşünürəm ki, Ərdoğan-Obama danışıqlarının arxasında əslində bu dayana bilərdi. Ancaq bir daha qeyd edirəm ki, Türkiyəni bu əməliyyata vadar edən terrorçu təşkilatlar, daha doğrusu, onların arxasındakı güclər, sponsorları oldu. Aydın məsələdir ki, "sponsorlar" da özlərini narahat hiss edirlər, İran-Qərb əlaqələrinin bərpası gözlənildiyindən daha sürətlə gedir. Yəni ən azı iqtisadi sahədə bu, açıq görünür. Həm Avropa ölkələrinə İran investisiyaları artır, həm də Avropa şirkətlərinin İrana yatırım qoymaq cəhdləri açıq görünür. Özü də kifayət qədər qətiyyətli və maraqlı görünürlər. Təbii ki, bu, bölgədəki bir sıra dövlətləri ciddi şəkildə narahat edir. Ona görə də düşünürəm ki, Türkiyəyə qarşı bu terror aksiyaları, belə desək, "ilk qaranquşlardır".

Ərəstun Oruclu istisna etmir ki, Türkiyədə başlanan terror dalğası regionun digər ölkələrinə də sirayət edəcək. Ancaq politoloqa görə, təhlillər növbəti hədəfin İran ola biləcəyini deyir, nəinki Azərbaycan: "Düşünürəm ki, terrorun sponsorları coğrafiyanı genişləndiməyə cəhd edəcəklər. Təkcə Azərbaycana qarşı deyil. Məncə, Azərbaycandan əvvəl, nə qədər təəccüblü görünsə də, növbədə İrandır. Bildiyiniz kimi, İraqda terrorçular İran sərhədlərinə çox yaxınlaşıblar. Azərbaycana ən azı məsafə baxımından onların çatmasına hələ çox var. Düzdür, hazırda beynəlxalq terrorizm üçün məsafənin heç bir anlamı yoxdur. O, bir şəbəkədir, Azərbaycanda da, digər ölkələrdə də var. Azərbaycanda təhlükə gözləniləndir. Mən düşünürəm ki, indi buna son dərəcədə həssas yanaşmaq və hazırlıqlı olmaq lazımdır. Amma nədənsə ehtimal edirəm ki, hədəfdə hələlik İrandır".

Politoloqun fikrincə, əməliyyatların davam etməsi şərtində Türkiyə ordusunun Suriyaya girməsi qaçılmaz olacaq: "Quru əməliyyatlarının başlayacağını istisna eləmirəm. Çünki hava əməliyyatları nəticə verməyəcəyi təqdirdə Türkiyə məcbur olacaq ki, quru əməliyyatlarına başlasın. Söhbət heç də böyük ordu birləşmələrinin cəlb olunduğu əməliyyatlardan getmir. Ola bilsin ki, sürətli komandos əməliyyatları olsun. Hər bir dövlətin öz təhlükəsizliyini təmin etmək hüququ var. Əgər Türkiyənin qonşuluğunda Suriya dövləti ərazilərinin 50-80 faizinə nəzarət edə bilmirsə, Türkiyə nə etməlidir? Terrorçularla hesablaşmalı deyil".

❑ KƏNAN

# Türkiyə terrora qarşı iki cəbhədə savaşacaq



Kənan RÖVŞƏNOĞLU

**Cəmi bir həftə bəs etdi. Bir həftə ərzində baş verən bir neçə hadisə Türkiyəni qorxulu olayların içinə atdı. Suruçda Kobaniyə yardım aparan solçu gənclərə qarşı terror, ardınca PKK-nın meydanlara çıxması və İŞİD-in Türkiyə hərbçisinə hücum edərək qətlə yetirməsi. Bu hadisələr sanki bir göz qırpımında baş verdi və artıq həftənin sonunda Türkiyə böyük miqyaslı hərbi əməliyyatlara cəlb olunmuşdu.**

Əslində Türkiyənin nə zamansa Suriya ərazilərindəki terror qruplarını, İŞİD-i vuracağı gözlənilən idi. PKK ilə də atəşkəsin kövrək olduğu, nə zamansa pozulacağına çoxları inanırdı. Amma hər ikisi qəfil oldu və Ankara iki cəbhə ilə birdən savaşmaq qərarına gəldi. Hazırda Türkiyə ordusu havadan və uzaqvuran artilleriya vasitəsilə qurudan Suriya ərazisindəki İŞİD mövqelərini və İraqın şimalındakı dağlarda PKK mağaralarını bombalayır. Eyni zamanda paralel olaraq polis və xüsusi xidmətlər ölkə ərazisində İŞİD və PKK tərəfdarlarını ifşa edərək həbs edir. Amma hər kəsə aydındır ki, bu əməliyyatlar bu cür davam etməyəcək, edə bilməz.

Türkiyənin qarşısında çətin seçim var. Ya əməliyyatları irəli aparacaq, PKK-nın ölkə daxilində və İraq, eləcə də Suriya ərazilərindəki mövqelərini tamamilə sıradan çıxarmaq üçün genişmiqyaslı quru əməliyyatları başladacaq, həmçinin Suriya ərazisinə daxil olub bölgəni İŞİD-dən təmizləyəcək. Yaxud da mütəmadi hava və quru zərbələrini davam etdirəcək, sərhədlərini möhkəmlədərək ölkə daxilində təmizlənmə işlərini gücləndirəcək. Bu isə uzun zaman aparan bir proses olacaq. Çünki ötən illərin təcrübələri də sübut edir ki, hava zərbələri, bombardmanlar terror təşkilatlarını məhv etmək üçün kifayət etmir, ən yaxşı halda onları müəyyən qədər itki verməyə və zəifləyib geri çəkilmələrinə səbəb olur.

Ancaq hər iki halda Türkiyə artıq böyük və qanlı savaşa qoşulmuş sayılır. Amma bu hadisənin eyni zamanda olması, Ankaranın iki cəbhə ilə savaşmaq qərarının arxasında hansı amillərin dayandığı hələ ki, açıq deyil. Türkiyə dövləti həm ölkə daxilində, həm də sərhədlərindən kənarda iki qanlı terror təşkilatı ilə savaşmalı olacaq, əslində artıq savaşır. Həm PKK-nın Türkiyənin yerli vətəndaşları olan kürdlərdən təşkil olunması, uzun illərə dayanan təcrübəsi və dayaqları, həm də İŞİD-in radikal dini görüşlərə dayanan ideologiyasının son illərdə Türkiyədə dərin kök atması onu deməyə əsas verir ki, Türkiyə hökuməti üçün daha çətin və ağır olan ölkədən kənardakı terror qərargahlarını vurmaq deyil, ölkə içindəki PKK və İŞİD bazalarını məhv etmək olacaq.

Ankaranın qarşısında ötən əsrin ortalarında olduğu kimi kürd problemi və ya radikal dinçi qruplara qarşı effektiv mübarizə üçün bölgə ölkələri ilə əməkdaşlıq etməsi də indi az ehtimalıdır. Çünki aydındır ki, hazırda İraq və Suriyada vəziyyət nəzarətdən çıxıb, bu ölkələrin özləri öz daxillərində terror və separatizmə qarşı mübarizə apara bilmirlər. Doğrudur, məsələn İraqın şimalında Qəndil dağlarının və ya Suriyanın şimalında İŞİD mövqelərinin bombalanmasına Bağdad və Dəməşq etiraz etmir. Çünki hər bir halda Ankara bu ölkələrin ərazi bütövlüyünü, BMT tərəfindən tanınmış sərhədlərini qəbul edir. Ancaq AKP hakimiyyətinin uzun müddət Suriyada hökumətə qarşı savaşan radikal qrupları dəstəkləməsi səbəbindən Dəməşq və Ankara arasında nəinki əməkdaşlıq, ümumiyyətlə, diplomatik əlaqələr belə qalmayıb. Bəşər Əsədin və ya Heydər İbadinin Türkiyə ilə birgə terrora qarası cəbhədə yer alması hələlik real görünmür. Ən azı indiki hökumətlə bu mümkün deyil.

İndi Ankara qarşısında yeganə yol sərhədlərdə təhlükəsizlik tədbirlərini gücləndirmək və paralel olaraq ölkə daxilində bütün terror şəbəkələrini ifşa etməkdir. Ankaranın indi bir addım geri çəkilməsi ölkəni qanlı terror girdabına sürükləyə bilər.



# Əsəbisinizsə, bu qidalardan yeməyi unutmayın!

## Stressdən dərmansız da qaçmaq olar

**Stress gündəlik həyatımızın ayrılmaz parçasına çevrilib. İstər şəxsi, istərsə də özümüzdən asılı olmayan səbəblərdən hər gün əsəb, stress yaşaya bilərik. Bəzən günlərlə bu stressi üzərimizdən atmağa çalışsaq da, bacarmırıq.**



Lakin dietoloqlar heç bir dərman və ya başqa vasitə qəbul etmədən, sadəcə, düzgün qidalar seçməklə stressdən azad olmağın yollarını göstərirlər. Musavat.com insanı stressdən azad edən qidaları təqdim edir:

Çiy yeyilən təzə meyvə və tərəvəzlər: təzə meyvə və tərəvəzlər tamamilə mexaniki bir şəkildə stressi azaltmağa kömək edə bilər. Məsələn, kərəviz və ya kök çənə əzələlərinizi işlədərkən gərginliyinizi azalda bilər.

İspanaq: bol maqnezium mənbəyi olan ispanaq stressin başağrısı, yorğunluq kimi təsirlərini aradan qaldırır.

Badam: təkibindəki E və B vitaminləri ilə stressi yox edir və əsəblərinizin sakitləşməsini təmin edir. Badam həm də immun sistemini gücləndirən qidadır.

Yağlı balıq: stressi nəzarət altında tutmaq üçün yağlı balıqları da menyunuzdan əskik etməyin. Somon və ton balığı kimi balıqlarda olan omega-3 yağ turşuları, stress hormonlarının artmasının qarşısını almaqla, ürək xəstəliyi, depressiya kimi əhval pozuqluqlarına qarşı da qoruyucu təsir göstərir. Özünüzü yaxşı hiss etmək istəyirsinizsə, həftədə ən azı iki dəfə yağlı balıq yeyin.

Avakado: yüksək qan təzyiqini azaltmaq üçün ən yaxşı üsullardan biri də yetərli miqdarda kalium qəbul etməkdir. Yarım avakado və ya bir ədəd bananda çox miqdarda kalium var.

Karbohidratlar kompleksi: bütün karbohidratlar xoşbəxtlik qaynağı olan seratoninlə zəngindir. Özünüzü yaxşı hiss etmək üçün daha yavaş həzm olunan tam taxıllı səhər yeməkləri, yulaf əzməsi kimi kompleks karbohidratları seçin. Bu cür karbohidratlar qan şəkərinin səviyyəsini qoruyarkən özünüzü də xoşbəxt hiss etmənizi təmin edər.

Portağal: tərkibində yüksək miqdarda C vitamini olan portağal immun sisteminizi gücləndirərkən stress hormonlarını da azaldır. Aparılan araşdırmalara görə, stressli bir işə başlamazdan öncə C vitamini qəbul edən şəxslərdə yüksək qan təzyiqi, stress hormonu olan kortizol səviyyəsi daha sürətli normala dönür.

Antep fıstığı: antep fıstığı, habelə digər fındıq növləri orqanizmin qəbul edə biləcəyi ən sağlam yağlar üçün əvəzedilməz qaynaqdır. Hər gün bir ovuc püstə, qoz, badam kimi düzgün qurudulmuş quru meyvələri qəbul etmək şəkərli diabet riskini azaltmaqla yanaşı, bədəndən xolesterolu təmizləməyə də yardımçı olur və stressin təsirlərini azaldır.

Qara çay: qara çay içmək stressdən daha tez xilas olmanıza kömək edə bilər. Tibb mütəxəssislərinin apardığı təcrübə də bunu təsdiqləyib. Belə ki, təcrübə üçün seçilmiş insanları iki ayrı qrupa bölərək, 6 həftə boyunca birinci qrupa gündə 4 stəkan qara çay, digər qrupa isə başqa bir içki verilib. 6 həftənin sonunda hər iki qrupda yer alan insanların vəziyyəti müqayisə edilib və qara çay içənlərin daha sakit və stressiz olduğu, onlarda stress hormonu olan kortizolun səviyyəsinin digər qrupdakılara nisbətən daha aşağı olduğu müəyyən edilib. Lakin qəhvə və kofein tərkibli içkilər stress hormonlarını və qan təzyiqini yüksəldə bilər.

❑ **Nərgiz LİFTİYEVA**



# Deputat Fərhad Qəribov sürücülərin pulunu mənimsəyib

## Milli Məclisin üzvü məhkəmə qərarını icra etmir; “Dedi gedin nə bilirsiz eləyin, pulu vermirəm”

**Deputat Fərhad Qəribovun oğlu bir qrup fəhləni işlədib pulu vermir. Redaksiyamıza müraciət edən bir qrup sürücünün dediklərindən məlum olur ki, 2012-ci ildə deputatın oğlu Zöhrab Qəribov onları işlədib, əmək haqqı ödəcəyini vəd edib, sonradan isə fikrindən daşınıb. Deyib ki, pulunuzu vermirəm. Sürücülər ədalət axtarışında Fərhad Qəribova üz tutublar.**

Şikayətçilər bildirir: “İpək yolu” layihəsinin Kürdəmir ərazisinə düşən hissəsində yolun çəkilişində podratçı kimi Fərhad Qəribovun oğlu Zöhrab Qəribov da iştirak edir. Podratçı şirkət “Ekspress-Trans” MMC-dir. MMC faktiki Zöhrab Qəribova məxsusdur, formal olaraq isə əmisi oğlu Sarvan Qəribov rəhbərlik edir. Biz sürücülərlə danışıb razılığa gələn Zöhrab Qəribov idi. 2012-ci ilin sentyabrında bizimlə Zöhrab danışmışdı, demişdi ki, işinizi görüb haqqınızı alacaqsız, ödənişdə heç bir problem yoxdur. Bizə yanacaq verdilər. 2012-ci il sentyabrın 21-dən işə başladıq. Kürdəmir rayonu ərazisində yük maşınları ilə çınqıl, şeben, atsep daşıyırdıq. İş 1 aylıq idi. Belə danışmışdıq ki, yanacaq verəcəklər, sonradan pulunu əmək haqımızdan çıxacaqlar. Daşıdığımız hər kubmetr yük üçün biz sürücülərə 3 manat ödənilməli idi. Əsasən Göyçay rayonunun Qaraməryam kəndi ərazisindən Kürdəmirə daş qırıntıları daşıyırdıq. Öhdəmizə düşən işi 1 ay ərzində gördük. Zöhrab Qəribovla görüşüb pulumuzu almaq istədik. Dedi ki, sabah gəlin verəcəyik. Hələ də ala bilməmişik".

### 2 illik get-gəlin sonu; “gedin nə bilirsiz eləyin, pulu vermirəm!”

Sürücülər deyir ki, ümumilikdə işlərinə görə onlara 18 min manat pul ödənilməli olub. Həmin məbləğin 3 min manatı yanacağa sərf olunub: “Pulumuzu verməyəndə Zöhrabla dəfələrlə görüşdük. Hər dəfə bir bəhanə ilə pulumuzu vermədi. Deyirdi ki, verəcəyik. Kürdəmirdə Qəribovun otelində, bazardakı ofisində, zavodunda, böyük istixanalarının olduğu yerdə oğlu ilə ayrı-ayrı vaxtlarda görüşüb pulumuzu istəmişik. Zöhrab Qəribov hər dəfə pulumuzu verəcəyini deyirdi, amma vermirdi. 2 il bizi küçələrdə qoydu”.

Sürücülər deyir ki, uzun süründürməçilikdən sonra Z.Qəribov pulu verməyəcəyini bəyan edib: “Dedi gedin nə bilirsiz eləyin, pulu vermirəm”.

Sürücülər düşünüblər ki, Z.Qəribov gəncdir, haqsızlıq edir, onun atası ilə görüşsələr, 1 aylıq əziyyətlərinin qarşılığını ala biləcəklər. Amma belə olmayıb: “Fərhad Qəribovla görüşə gedəndə düşünürdük ki, millət vəkilidir, haqsızlığa qarşı olar. O da oğlu kimi ”gedin nə bilirsiz eləyin, kimə istəyirsiz deyin, sizə pul verilməyəcək" dedi. Məcbur qalıb prezidentə yazdıq ki, işləmişik, deputatın oğlu pulumuzu vermir. Atası da deyir ki, əcəb eləyirik, vermirik. Məktubu araşdırmaq üçün göndərdilər Əmək Müfəttişliyinə. İşi araşdırdılar, dedilər ki, iş məhkəməlikdir. Müraciət etdik Kürdəmir Rayon Məhkəməsinə. Hakim Rafiq Bağırov əlimizdə olan yanacaq haqda qaimələrə, sənədlərə baxıb haqlı olduğumuzu dedi. Amma qərarı Qəribovların xeyrinə verdi. Şirvan Apelyasiya Məhkəməsinə üz tutduq. Kürdəmir Məhkəməsinin qətnaməsi ləğv olundu, bizim halal haqqımızın ödənilməsi öhdəliyi Fərhad Qəribovun oğlunun üzərinə qoyuldu. Qəribovlar Ali Məhkəməyə üz tutdular. Ali Məhkəmə Şirvan Məhkəməsinin qərarını qüvvədə saxlayıb haqqımızın ödənilməsi tələbinin yerinə yetirilməsi qərarını verdi".

### “Fərhad Qəribov da deyir ki, 1 milyon xərcləyəcəyəm...”

Sürüclər deyir ki, hazırda iş Kürdəmir Məhkəmə İcra Qrupundadır: “Qrupdan deyirlər ki, bizim Fərhad Qəribova gücümüz çatmır, o, Kürdəmirin deputatıdır. Aylardır ki, Ali Məhkəmənin qərarı icra olunmur. Halbuki qanuna hörmətlə yanaşmaq ilk növbədə deputatın öz işidir. Qanunu verən də deputat, pozan da?

Məhkəmə qərarının icra olunmamasına görə Qəribovlara məxsus MMC Kürdəmir Məhkəmə İcra Qrupu tərəfindən 1 dəfə 3 min manat, sonradan isə əlavə olaraq 2 min manat cərimə olunub. Fərhad Qəribov da deyir ki, 1 milyon xərcləyəcəyəm, amma sizə 1 qəpik də ödəməyəcəyəm. Sözü də budur ki, siz niyə gedib mənim oğlumdan şikayət etmisiz? Şikayət etməyib nə edək? İşləmişik, pulumuzu vermirsiz. Nə etməliyik? Biz haqqımızı istəyirik. Halal haqqımızı! Üstəlik haqqımızı almaq üçün oğlu, özü ilə dəfələrlə görüşmüşük, telefonla danışmışıq. Hər dəfə də ata-balanın dedikləri bu olub ki, gedin nə bilirsiz eləyin. Bu cür sözlərdən sonra deputatın bizə “niyə şikayət edirsiz” deməsi anlaşılmazdır".

### Deputatın qardaşı oğlunu 120 min manat cərimələyiblər

Sürücülər deyir ki, deputat oğlunun onlara qarşı haqsızlığının aradan qaldırılması üçün üz tutduqları dövlət qurumlarının





10-04;2014.

16 saylı region üzrə Dövlət Əmək Müfəttişliyinin rəisi cənab F.Gülüşova

Bildiririk ki, Vergilər Nazirliyinin 10.01.2014-cü il tarixli 1477020000797100 saylı Qərarına əsasən “Ekspres-Trans” Müəssəsinə Səyyar Vergi yoxlaması açılmışdır. Hal-hazırda müəssisənin bütün sənədləri Vergilər Departamentindədir. Ona görə də ilkin sənədlər məssisədə olmadığından yoxlamaya sənəd təqdim edə bilmirik.

Nəzərə almağınızı xahiş edirik.

Hörmətlə:
“Ekspres-Trans”
MMC-nin Direktoru: Qəribov Sarvan Qulu oğlu

araşdırmaları zamanı Qəribovlara məxsus MMC-nin “İpək yolu”nun tikintisi zamanı böyük vergi cinayətlərinə yol verildiyi də üzə çıxıb. Məlum olub ki, deputatın oğlu dövlətə vergi ödəməmək üçün qanunsuzluqlar edib, vergidən yayınıb: “Prezidentə müraciətimizdən sonra məsələ araşdırılmağa başlayanda dedilər ki, şikayətçilər - yəni bizlər ümumiyyətlə onların şirkətində işləməmişik. Əlimizdə isə qaimələr var, həmin qaimələrdə ”Ekspress-Trans" MMC-nin möhürü, MMC sədri olan Fərhad Qəribovun qardaşı oğlu Sarvan Qəribovun imzası var. Qəribovlar Əmək Müfəttişliyinə məktub yazıb verdilər ki, “Ekspress-Trans” MMC 2012-ci ilin mayından fəaliyyət göstərmir. Digər bir məktubda isə yazır ki, qaimələrdəki möhür “Ekspress-Trans” MMC-yə məxsus deyil. 2014-cü ilə qədər dövlət qurumlarına belə yalan məlumatlar verməklə pulumuzu verməkdən yayındılar. Həmin il biz məhkəmə ilə yanaşı Vergilər Nazirliyinin 195 xidmətinə də müraciət edib “Ekspress-Trans” MMC-nin fəaliyyətinin yoxlanılmasını xahiş etdik. Vergilər Nazirliyi araşdırmalara başladı. Araşdırmalarla təsdiqləndi ki, MMC faktiki olaraq fəaliyyət göstərib, lakin vergidən yayınmaq üçün fəaliyyətsiz olduqları haqda dövlət orqanlarına yalan məlumatlar veriblər. Buna görə də deputatın qardaşı oğlu Sarvan Qəribovu saxladılar, rəhbəri olduğu MMC 120 min manat cərimə olundu. S.Qəribov 70 min manatı ödədi, yerdə qalan 50 min manatı da ödəmək öhdəliyi götürdü. Bundan sonra onu azad etdilər. Bizim 15 min manatımızı isə ödəməyə tələsmirlər. Fərhad Qəribov düşünür ki, bizlər haqqımızı istəməkdən yorulacağıq. Bilsin ki, bizim haqqımızı sonadək tələb edəcəyik. Çünki həmin pulları bizlər halal zəhmətimizlə qazanmışıq".

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S** *Qarşı tərəfi də dinləməyə hazırıq.*

YENİ MÜSAVAT
N 161 (6189) 27 iyul 2015



# “Kitayski Antalya”da bir neçə saat...

## Nabranın ən populyar istirahət mərkəzlərində nələr olur?

**AZAL-ın inhisarçılığı, buna görə dövlət başçısı tərəfindən edilən iradlar və tragikomik “endirimlər”... Bura qədərini hamınız bilirsiniz. Onu da bilirsiniz ki, məhz təyyarə biletinin bahalığı ucbatından azərbaycanlılar artıq Tiflisdən nisbətən ucuz qiymətə Türkiyəyə uçur, tətil paketini burdan alır, adambaşına ən azı 400 manat “qabağa düşür”.**

Amma bu əziyyətə qatlaşmaq istəməyənlər də var: məlum, Tiflis yolu uzaq. Get-gəl, bunun uşaqlısı var, yola dözümsüzü, xəstəsi var. O halda çarə qalır yerli turizm obyektlərinə.

“Yeni Müsavat”ın əməkdaşı bu dəfə Nabranda yerləşən, hər gün televiziya və radiolarda reklamı göz və qulaq “deşən” Atlant istirahət mərkəzində oldu. Reportyorlarımız ötən il də adı silahlı atışma ilə hallanan vaxt (avqust ayında) bu mərkəzdə olub, orada baş verənləri nəzərə çatdırmışdı. Bu il isə həm dəyişiklikləri, həm də ümumi durumu müqayisəli təhlil etməyə imkan verdi.

**“Antalyaya oxşadıblar, amma üzdə...”**

“Buranı Antalyaya, Bodruma oxşatmağa çalışıblar e. Amma hər şey üzdədir, dərindən baxanda hər şey fərqlidir”. Bunu istirahət mərkəzinə birgünlük ailəsi ilə gələn Tanrıverdi adlı müsahibimiz dedi. Yerli turist bildirdi ki, bura gəlişinin yeganə səbəbi Türkiyəyə, eləcə də, dünyanın tanınmış istirahət mərkəzlərinə getməyə maddi imkanının çatmamasıdır: “Bakıdan bura 2.5-3 saatlıq yoldur. Avtovağzaldan 6 manat verib, bura gəlmək mümkündü. Ailədə 4 nəfərik. Gəliş pulumuz elədi 24 manat. O mənada sərf eləyir. Bir nəfərin burda qalması da - gündə 3 dəfə yeməklə, adambaşına 50 manatdır. Belə götürəndə o qədər də baha çıxmır. Amma gəlin görək o 50 manata dəyən nə edirlər? Bu mənada sərf eləmir. Biz 3 il bundan əvvəl Türkiyədə olmuşuq. Oranın istirahət mərkəzləri ilə bunların arasında dağ qədər fərq var. Üzdə onlara oxşadıblar, amma dərin mənada Antalya, Bodrum istirahət mərkəzləri ilə müqayisə etməyə dəyməz. Nə yemək, nə qulluq, nə təmizlik... müqayisə oluna bilməz”.



Qiymətlərə nəzər salaq: “Atlant”da 1 və 2 otaqlı 2 mərtəbəli hotel bloklarda və 1 və 2 otaqlı 6 mərtəbəli hoteldə 1 nəfərin yaşamaq haqqı, İsveç masasında gün ərzində 3 dəfə yemək və 45 növ əyləncələr daxil olmaqla 50 AZN təşkil edir. (Ötən il müvafiq xidmətlər üzrə qiymət 45 AZN idi) Yox, əgər sizin Nabranda qalacağınız başqa bir yer varsa və ancaq 45 növ əyləncədən yararlanmaq istəyirsinizsə, sadəcə 10 AZN ödəməklə içəri girmək mümkündür. 6 yaşına qədər uşaqların girişi pulsuzdur. 10 AZN-ə kiçik yaşlı uşaqlar üçün hovuz, 4 sürüşkən, futbol meydançası, basketbol, çimərlik voleybolu, böyük tennis, badminton, uşaq şəhərciyi, böyüklər üçün yelləncəklər, Venetsiyada qayıq gəzintisi, həlqə, bilyard, 10 növ idman məşğələsi, uşaqlar üçün əyləncəli yelləncəklər daxildir.

Ödənişli əyləncələr isə aşağıdakılardır: kartinq, paintball, tir, internet klub, stolüstü xokkey, uşaqlar üçün elektron model maşınlar, gecə klubu, diskoteka (kənardan gələnlər üçün ödənişli giriş 5 AZN), gözəllik salonu, solarium, masaj, fin saunasıdır.

Məsələn, qoluna bir həftəlik tatu vurdurmaq istəyənlər üçünsə 5 AZN-dən 20 AZN-ə qədər seçimlər var.

**Restoranda menyu qıtlığı, hovuzda qənaət prinsipi...**

Uşaqların daha çox istifadə etdiyi hovuzlarda isə qənaət prinsipi hökm sürür. Gündə ən azı 1-2 saat işıqları kəsməklə hovuzlardakı attraksionlara fasilə verilir. Böyüklərin hovuzlarındakı bəzi əyləncə vasitələri - atrilər (iri döşəklər, oyuncaq “at”lar) isə ödənişlidir - yarım saatı 5 AZN.




İstirahətdən sonra bir nahar, şam etmək istəyənlər üçün də seçim imkanı boldur. Məkanların sayı çox olsa da, menyu sabitdir: lülə, tikə, basdırma... Və ya basdırma, lülə, tikə. Siz restoranların girişindəki iri menyu lövhələrinə aldanıb da içəri girənlərdənsizsə, əmin olun ki, ofisiant ancaq yuxarıda sadaladığım 3 kabab növünün adını çəkəcək və sizə “bunlar məsləhətdir” deyib məsləhət xarakterli diktələr edəcək. Burda da kabab qiymətlərinin şəhərdən fərqləndiyini demək olmaz. Əksər restoranlarda qiymətlər belədir: lülə (ət, toyuq) 4 AZN, tikə 4 AZN, basdırma(dana) 4.50 AZN, çolpa(təndirdə) 8 AZN. Siyahıda şorbaların, salatların yazılmasına əhəmiyyət verməyin, çünki onların hazır olanı heç vaxt olmur.

Və daha bir detal. Əgər siz menyuya baxıb, soyuq qəlyanaltıların qarşısında aşağı qiymət görürsüzsə, aldanmayın. Məsələn, xiyar-pomidor salatı üçün 1 AZN yazılırsa və sizin masanızda 5 nəfər varsa, siz o salat üçün ümumilikdə 5 AZN ödəyəcəksiniz. 5 dilim xiyar və 5 dilim pomidor - bir yeşik pomidor-xiyar qiymətinə satılır.

Amma burada qalanlar üçün İsveç masası seçimi var ki, yazılanlara inansaq, burda da normal qidalanmaq istəyənlər üçün xeyli seçim var.

**“Rəhbərlik dəniz faktorunu nəzərə almalı, oranı yararlı hala gətirməlidir”**

“Atlant”da istirahət edənlərin isə istirahət mərkəzi barədə fikirləri bir-birindən fərqlidir. Məsələn, burdan yerlə-göy qədər razılıq edən Nübar xanım son iki ildə istirahət üçün buranı seçir: “Mən Antalyada da, Bodrumda da olmuşam. Buranı artıq o yerlərə bənzədiblər. Üstəlik, yaxındır. Bir var sən burdan durub Antalyaya gedəsən, bir də var Bakıdan 2 saata gələsən bura. Özü də Türkiyəyə 1 həftəlik gedirsənsə, 2 gün - getdiyin və qayıtdığın gün istirahətdən sayılmır. Cəmi 5 gün istirahət edirsən. Üstəlik, bir nəfərlik Antalya istirahəti ən azı 600-700 manatdır. Burda isə bir nəfər həmin pula 10-15 gün qala bilir. Düzü, mənə bura sərf eləyir, hesablayanda görürəm ki, yaxşıdır. Onsuz da uşaq hovuzdan çıxmır. Başqa şeylər mənim nəyimə lazımdır? Bir tərəfi meşə, qarşıda dəniz...”

Amma ilk dəfədir “Atlant”ı seçən Jalə xanım narazılığını gizlətmədi: “Həmişə deyirlər ki, Nabranda dəniz də var, meşə də. Mən şəxsən burda dəniz-filan görmədim. Birincisi, dəniz burdan xeyli uzaqdır. İkincisi də, üzməyə yararlı deyil. Yolun o biri üzüdür, üstəlik, burdan ora ayaqla 15 dəqiqəlik yoldur. İstirahət mərkəzi rəhbərliyi nəzərə almalıdır bunu. Ora oturacaqlar qoymalı, servis təşkil etməlidir. Yoxsa ki, xlorlu suda nə qədər üzmək olar axı? Dəriyə də ziyandır, bronxlara da. Hamısı xəstəlikdir. İçəri girirsən, xlorun iyindən baş çatlayır. Özü də mən deyim ki, burda hovuzların təmizliyi də elə ideal deyil. Dünyanın bütün belə istirahət mərkəzlərində dəniz faktoruna önəm verirlər. Dəniz suyunun, ondakı minerallarının, qumun yerini heç nə vermir”.

Jalə xanım mərkəz daxilindəki kafelərin də bahalığından şikayətləndi. Dedi ki, hovuz kənarında sadə, mürəbbəsiz çay istəsən, bu, sənə 5 AZN-ə başa gələcək. Mürəbbəli çay isə 8 AZN-dir: “Bapbalaca çaynikdir. İki-üç stəkan içən kimi qurtarır. Bunun maya dəyəri nədir ki, belə baha verirlər? Onsuz da içəridə hər şey bahadır də”.




Bu arada ötənilki durumla müqayisə edəndə görünür ki, rəhbərlik faktiki heç bir yenilik, təmir etməyib, yaxşı mənada dəyişikliyə yol verməyib. Necə deyərlər, köhnə hamam, köhnə tas. Tutaq ki, ötən il istifadəyə yararlı olan ayaqyolları artıq köhnəlib, təmirə ehtiyacı var, gigiyena haqda yüksək fikir söyləmək olmaz. Məsələn, uşaq hovuzlarının yanında şezlonqa uzananlar yaxınlıqda yerləşən ayaqyolundan gələn natəmiz qoxu ilə hovuzun xlorlu qoxusunun “sintezini” udmaq zorundadır.

Daha bir detal. Ötən il uşaq hovuzlarına yerləşdirdikləri pulsuz oyuncaqlar bu il yoxdur və sair. Yəni yaxşılığa doğru addım yerinə, geriyə bir addım atılıb. Bu arada... Sizə nə mərkəzin girişində, nə yeməkxanalarda, nə çayxanada ödədiyiniz hansısa məbləğin qarşılığında çek verməyəcəklər.

“Atlant”a gəlmək istəyənlər üçünsə yollar o qədər də qarışıq deyil. Maşınla gələnlər onsuz da Xaçmazın girişindən etibarən yolboyu Atlantın yönləndirici, iri elanları ilə qarşılaşırlar. Onların çaşıb başqa bir yerə getməsi mümkün deyil. Necə deyərlər, yollar birbaşa sözügedən istirahət mərkəzinə gətirir. Mərkəzə girib, dayanacağa da 1 AZN ödəyəndən sonra yazıda qeyd etdiyimiz məbləği ödəməklə ya birgünlük, ya da gecədə qalmaq şərtilə istirahət hüququ qazanmaq olar.

Avtobusla gəlmək istəyənlər üçün də durum sadədir. Bakı Avtovağzalında hər 15 dəqiqədən biri Xudata avtobuslar işləyir - 4 AZN-ə. Xaçmaz avtobuslarının qrafiki da intensivdir. Onun qiyməti isə 5-6 AZN-dir.

❑ **Sevinc TELMANQIZI**

# Soydaşımız Azərbaycan vətəndaşlığı ala bilmir

## Bakıda doğulub böyüyən uşaqların ölkədə qeydiyyata alınması müşkülə çevrilib

## Dövlət Miqrasiya Xidməti azərbaycanlıları qaraçıya çevirməkdə israrlıdır


AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 012345678
Soyadı
XXXXXXX
Adı
XXXXX
Atasının adı
XXXXX XXXX
Doğulduğu yer və tarix
AZƏRBAYCAN,BAKI şəh.
XX.XX.XXXX
I<AZEXXXXXXX<<XXXXX<<<<<<<<<<<<<<<<<

**Dövlət Miqrasiya Xidmətinin Gürcüstandan olan soydaşlarımıza kəskin neqativ münasibəti illərdir ki, dəyişmir. Redaksiyamıza müraciət edən Esmira Musayevanın ailəsi də Dövlət Miqrasiya Xidməti məmurlarından şikayətçidirlər.**

"Bizim ailəmiz 1993-cü ilin əvvəllərində Gürcüstandan Azərbaycan Respublikasına daimi yaşamaq üçün köçmüşük. Həmin ildən Azərbaycan Respublikasında yaşayırıq. 3 övladımız var. İki oğlan, bir qız. Oğlum -Elnur Elşən oğlu Qəmbərov 07 oktyabr 2000-ci ildə anadan olub, birinci sinifdən 89 saylı tam orta məktəbdə oxuyur, hazırda həmin məktəbin 8-ci sinfində oxuyur.

Oğlum - Elşad Elşən oğlu Qəmbərov 19 dekabr 2006-cı ildə anadan olub. Hazırda 89 saylı tam orta məktəbin ikinci sinfində oxuyur. Azərbaycan Respublikasının vətəndaşıdır.

Qızım - Elvira Elşən qızı Qəmbərova 21 yanvar 2012-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Respublikasının vətəndaşıdır.

Böyük oğlum Elnur Elşən Qəmbərova şəxsiyyət vəsiqəsi almaq üçün Xətai Rayon Pasport Qeydiyyat Şöbəsinə müraciət etdik. Oradan bizə cavab verirdilər ki, Azərbaycan Respublikasının vətəndaşlığı haqda qanuna uyğun olaraq Elnur Elşən oğlu Qəmbərov Azərbaycan Respublikasının vətəndaşı sayılmır. Dövlət Miqrasiya Xidmətinin əməkdaşları oğlum Elnur Qəmbərovun sənədlərini araşdırarkən Vətəndaşlıq haqda qanunun 21-ci maddəsi, nəzərə almadı. Belə ki, qanuna görə, valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsdirsə, digər isə əcnəbidirsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş valideynin vəsatəti və əcnəbi valideynin razılığı ilə Azərbaycan Respublikasının vətəndaşı ola bilər.

Mən Elnurun anası olaraq Azərbaycan Respublikasının vətəndaşlığını əldə etməsi üçün vəsatət qaldırıram, atası Elşən Yolçu oğlu Qəmbərov isə razılıq ərizəsi verib. Bütün bunlara baxmayaraq bilmirəm nə əsasa görə mənim oğlum Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilmir. Hesab edirəm ki, Dövlət Miqrasiya Xidməti tərəfindən oğlumun hüquqları kobudcasına pozulur. Bizə qarşı ədalətsizlik edirlər. Mənim oğlum 8-ci sinifdə oxuyur, ondan məktəbdə şəxsiyyət vəsiqəsi istəyirlər. Bununla əlaqədar olaraq prezidentə, Mehriban xanım Əliyevaya, Ailə Uşaq və Qadın Problemləri Komitəsinə və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Elmira Süleymanovaya müraciət etmişik. Bizə təkcə omudsman cavab verib. O cavab bizi qane etmir" -deyə Esmira Musayeva bildirib.

Onun sözlərinə görə, ombudsmanın verdiyi cavabda yazılıb ki, məhkəməyə müraciət edə bilərlər: "Mənim hüquqlarım pozulur, hər xırda işdən ötrü məhkəməyə müraciət etməli oluruq. Belə yaşamaq olarmı?

Dövlət Miqrasiya Xidməti 27.06.2015-ci il tarixli məktubu ilə bizə tövsiyə edir ki, oğlum Gürcüstanda anadan olduğunu nəzərə alaraq onun Gürcüstan vətəndaşlığını əldə etməsi üçün Gürcüstan Respublikasındakı diplomatik nümayəndəliyinə müraciət edək. Niyə onlar nəzərə almırlar ki, biz burda yaşayırıq, evimiz burdadır? Oğlum gürcü dilini bilmir, orada evimiz yoxdur. Oğlum əgər Gürcüstan vətəndaşlığını qəbul etsə, Gürcüstanda harada yaşasın? Axı o, heç gürcü dilini də bilmir. Ona görə də o məsləhəti bizə verməsinlər. Mənim oğlum Azərbaycan Respublikasının vətəndaşı olmaq istəyir.

Prezidentdən artıq dərəcədə xahiş edirik ki, oğlum Elnur Elşən oğlu Qəmbərovun Azərbaycan Respublikasının müvafiq qanununun 21-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının şəxsiyyət vəsiqəsi ilə təmin olunmasına köməklik göstərsin".

❑ E.MƏMMƏDƏLİYEV



## Kürdəmirdə nişanlı qız özünü asdı

**Kürdəmir rayonunda intihar hadisəsi baş verib. lent.az-ın məlumatına görə, rayonun Pirili kəndində yaşayan 1997-ci il təvəllüdlü Qəhrəmanova Bikəxanım Rəhim qızı özünü asaraq intihar edib. Onun meyiti evin həyətindəki tövlədə asılı vəziyyətdə tapılıb.**

Bildirilir ki, bu günlərdə 18 yaşlı Qəhrəmanova ali məktəbə qəbul olunmaq üçün imtahan verib. Lakin onun nəticələri qənaətbəxş olmayıb. Bundan sonra sarsıntı keçirən 18 yaşlı qız özünü öldürüb.

B.Qəhrəmanova nişanlı olub. Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.



## Məhkum həbsxananın həkimlərindən şikayət etdi

### "Dəfələrlə bu həkimlərin ayaqlarına düşüb, yalvarıb-ağlayıb məni müalicə etmələrini xahiş etsəm də, heç bir xeyri olmayıb"

**Ədliyyə Nazirliyinin 6 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum Həsənov Tahir Şəmməd oğlu "Yeni Müsavat" qəzetinə məktub yollayıb. O yazır: "Mən dustağam, törətdiyim əməlimə görə 12 il cəza almışam. 3 ildən artıqdır ki, Ədliyyə Nazirliyinin müalicə müəssisəsinin insanlıqdan, həkimlikdən xəbəri belə olmayan həkimlərinin işgəncələri nəticəsində dözülməz durumdayam. Yuxusuzluq, əsəb, stress, ürək ağrısı, mədə-bağırsaq ağrısına dözə bilmirəm. Gücsüz, taqətsiz durumdayam.**

Müalicə almaq üçün 6 saylı müəssisədən Ədliyyə Nzirliyinin müalicə müəssisəsinə göndərilsəm də, 3 il ərzində bu günə kimi məni orada müalicə etmirlər. Xəstəxanadakı müayinə-müalicələrin heç biri düzgün aparılmır. Dövlət tərəfindən ayrılan iynə-dərmanlar xəstələrə verilmir. Xəstə, imkansız dustaqlar ağır vəziyyətdədirlər. Yemək də keyfiyyətli deyil. Xəstəxanada hər şey pulladır. Pulun yoxdursa, yıxıl öl. Heç həkimin vecinə deyil. Həkim xəstəyə şəfa verməlidir. Burada hər şey tərsinədir. Həkimdən müalicə tələb etdikdə, pulun yoxdursa, deyir ki, sən cinayət eləmisən, bizdən müalicə tələb etmək haqqın yoxdur. Pulun yoxdursa, biz nə edək, özünü öldür. Mən dəfələrlə bu həkimlərin ayaqlarına düşüb, yalvarıb-ağlayıb məni müalicə etmələrini xahiş etsəm də, heç bir xeyri olmayıb. Məni hər dəfə xəstəxanada xəstə olduğum halda, əllərimə qandal vurub sürüyüb maşına qoyub geriyə - cəza çəkdiyim 6 saylı müəssisəyə göndərirlər. Məni it yerinə qoymurlar. Burda mənim kimi xəstələr çoxdur. Hamımız bu vəziyyətdəyik. Yiyən, pulun yoxdursa, mənim kimi işgəncəylə ölməlisən. Kimin yiyəsi varsa, gəlib həkimə pul verir. İynə-dərmanı özü alıb gətirir. Lazımdırsa, öz pullarıyla savadlı həkim də gətirirlər. Yeməkləri də çöldən gəlir. Məni isə nə müalicə edirlər, nə yemək verirlər. Burada pulsuz heç nə yoxdur. Həkimdən müalicə tələb etdikdə çox vaxt məni döyürlər. Sürüyüb bayıra atırlar. Baxmırlar xəstəyəm. Səadət Əzizova, Məhərrəm, Hafis, Anar, Feruz, Mehman Qədirov, Akşin, Bəhruz - adlarını qeyd etdiyim həkimlər bizə əzab verirlər. Mən başıma gələnlər barədə hər yerə şikayət etmişəm, heç kim baxmır. Prezidentə, Mehriban xanıma, ombudsmana, dəfələrlə Ədliyyə Nazirliyinin tibb baş idarəsinə yazmışam. Baş idarədən İftixar Qurbanov və Samir adlı inspektor gəlib mənə hədə-qorxu gəlirlər. Xəstəxananın həkimlərinin cinayət əməllərinə göz yumurlar. Mənim Allahdan başqa heç kimim yoxdur. Dalımca gələnim yoxdur. Burda yiyəsiz oldunsa, mənim kimi ölməlisən. Yalvarıram mənə kömək edin, imkan verməyin məni öldürsünlər. Mən dustağam, mən axı pulu hardan gətirim bunlara verim? Mən intihar həddindəyəm, məcburam özümü öldürüm, daha dözə bilmirəm".

❑ T.ƏHMƏDLİ

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# DÇ-2018-İn püşkü atıldı

FIFA WORLD CUP RUSSIA 2018

## Rusiya FİFA-dakı rüşvət qalmaqalından sonra rahat nəfəs aldı, qruplarda kimlər var?

**İyulun 25-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən futbol üzrə dünya çempionatının seçmə mərhələsinin püşkatmasına maraq əvvəlki analoji tədbirlərdən qismən fərqlənirdi. Bu da səbəbsiz deyildi.**

### Ruslar rahatlandı

Məlumdur ki, FİFA hazırda 111 illik tarixi ərzində ən böyük böhranı yaşayır. FİFA-nın iki vitse-prezidenti də daxil bir neçə yüksək rütbəli məmuru iki ay əvvəl rüşvət ittiahamı ilə həbs edilib. Onlara əsas ittihamlar sırasında dünya çempionatlarının keçirilməsi üçün müxtəlif ölkələrdən milyonlarla rüşvət almalarıdır. FİFA prezidenti Yozef Blatter bu ittihamları əvvəl qəbul etmədi. Amma yenidən FİFA prezidenti seçilməsinə baxmayaraq, geri çəkilməli oldu və quruma yeni seçkilər təyin edildi. İndi o yalnız de-fakto müvəqqəti prezident səlahiyyətlərini icra edir.





FİFA-dakı rüşvət qalmaqalı başlayanda DÇ-2018-in Rusiyada keçirilməsi üçün rüşvət verilməsi barədə iddialar yenidən gündəmə gəldi. FİFA rəhbərliyinin 2018-ci və 2022-ci illər dünya çempionatlarının ev sahibliyi hüququnu müvafiq olaraq Rusiya və Qətərə verərkən külli miqdarda rüşvət aldığı barədə hələ bu rüşvət qalmaqalından əvvəl də Avropa mediasında dəfələrlə müxtəlif iddialar səsləndirilmişdi. Rusiya prezidenti Vladimir Putin də vəziyyətin ciddiliyinin anlayaraq FİFA prezidentinə təzyiqlərdə əsas məqsədin Rusiyada keçiriləcək dünya çempionatını qadağan etmək olduğunu demişdi. Amma FİFA-da rüşvətlə bağlı istintaq illərlə hazırlıqlar tələb edən bir çempionatın Rusiyadan alınması məsələsini böyütmədi. Rusiya prezidenti püşkatmada iştirak etmək üçün Sankt-Peterburqa gələn Blatterlə görüşündə 2018-ci il dünya çempionatı ilə bağlı bütün hazırlıqların vaxtında və yüksək səviyyədə başa çatacağına söz verib. Beləliklə, dünya çempionatının Rusiyada alına biləcəyi ilə bağlı söz-söhbətə Sankt-Peterburqda nöqtə qoyulub.

### Avropa qrupları - dünya çempionu rəqibimiz oldu

Əvvəl püşkatmada iştirak edəcək 52 Avropa yığması 9 qrupa bölünüb. Bunların 7-də 6, 2-də 5 komanda olub. Püşkatmada AFFA-nın prezidenti Rövnəq Abdullayev və baş katib Elxan Məmmədov və milli komandanın baş məşqçisi Robert Proniseçki iştirak edib.

Azərbaycan millisi 6 komandanın olduğu C qrupunda yer alıb. Yığmamızın bəxti yenə gətirməyib və qrup mərhələsində kifayət qədər güclü rəqiblərlə mübarizə aparmalı olacaq. Belə ki, millimiz Almaniya, Çexiya, Şimali İrlandiya, Norveç və San Marinoya rəqib olub.














"Yaxşı komandaların olduğu maraqlı qrupa düşdük". Bunu Almaniya millisinin baş məşqçisi Yoahim Löv deyib.

Təcrübəli mütəxəssis rəqiblərdən Çexiya, Norveç və Şimali İrlandiyanın iddialı komandalar olduğunu vurğulayıb: "Çexiya, Norveç və Şimali İrlandiya ambisiyalı komandalardır. Bu yığmalar yaxın keçmişdə yaxşı nəticələr əldə edib. Əlbəttə ki, son dünya çempionu kimi qrupu lider başa vurmaq istəyirik. Eyni zamanda qrupun favoritiyik".

Alman mütəxəssis deyib ki, hazırda bütün diqqəti yalnız "Avro-2016"nın seçmə mərhələsinə yönəldiblər. Bu turnirdən sonra isə dünya çempionatının seçmə mərhələsi haqda düşünəcəklər.

### AFFA-nın prezidenti Rövnəq Abdullayev də

milli komandamızın maraqlı oyunların keçiriləcəyi qrupa düşdüyünü deyib: "San-Marino yığmasının digər rəqiblərimizlə müqayisədə ən aşağı reytinqə sahib olduğu məlumdur. Şimali İrlandiya yığması ilə ötən seçmə mərhələdə qarşılaşmışıq, Norveç komandası ilə hazırkı seçmə mərhələdə artıq iki oyun keçirmişik və bu komandaları yaxın keçmişin tanış rəqibləri adlandıra bilərik. Çexiya yığması son dövrlərdə çox yüksək nəticələrə nail olmasa da, müxtəlif vaxtlarda bu komandanın mötəbər turnirlərdə gözəl oyunlarını izləmişik. Son dünya çempionatının qalibi olan Almaniya milli komandası barədə hər hansı xüsusi fikir bildirməyə ehtiyac duyulmadığını düşünürəm". O, millimizin seçmə mərhələdə əldə etdiyi nəticələrlə azarkeşləri sevindirəcəyinə ümid etdiyini deyib.

Avropa qrupunu təqdim edirik:

**A qrupu:**
*Hollandiya, Fransa, İsveç, Bolqarıstan, Belarus, Lüksemburq*

**B qrupu:**
*Portuqaliya, İsveçrə, Macarıstan, Farer adaları, Latviya, Andorra*

**C qrupu:**
*Almaniya, Çexiya, Şimali İrlandiya, Norveç, Azərbaycan, San-Marino*

**D qrupu:**
*Uels, Avstriya, Serbiya, İrlandiya, Moldova, Gürcüstan*

**E qrupu:**
*Rumıniya, Danimarka, Polşa, Monteneqro, Ermənistan, Qazaxıstan*

**F qrupu:**
*İngiltərə,Slovakiya, Şotlandiya, Sloveniya, Litva, Malta*

**G qrupu:**
*İspaniya, İtaliya, Albaniya, İsrail, Makedoniya, Lixtenşteyn*

**H qrupu:**
*Belçika, Bosniya və Hersoqovina, Yunanıstan, Estoniya, Kipr*

**I qrupu:**
*Xorvatiya, İslandiya, Ukrayna, Türkiyə, Finlandiya*

### Oyunların təqvimi məlumdur

Rusiya təşkilatçı ölkə kimi final mərhələsinə birbaşa vəsiqə alsa da, H qrupunda simvolik təmsil olunub. Onun oyunlarının nəticələrinin qrup turnirinə heç bir təsiri olmayacaq, daha doğrusu yoldaşlıq görüşü xarakterli olacaq.

Avropa yığmaları arasında keçiriləcək təsnifat mərhələsinin oyunları 2016-cı il sentyabrın 4-də start götürəcək. Seçmə mərhələnin qrup oyunları 2017-ci il oktyabrın 8-10-da başa çatacaq.

"Play-off" matçları noyabrda keçiriləcək: ilk oyunlar - 2017-ci il 9-11 noyabrda, cavab oyunları - 12-14 noyabrda.

Oyunların ilkin tarixləri aşağıdakı kimi müəyyən edilib: 1-ci tur: 2016-cı il 4-6 sentyabr; 2-ci tur: 6-8 oktyabr; 3-cü tur: 9-11 oktyabr; 4-cü tur:11-13 noyabr; 5-ci tur: 2017-ci il 24-26 mart; 6-cı tur: 9-11 iyun; 7-ci tur: 31 avqust - 2 sentyabr; 8-ci tur: 3-5 sentyabr; 9-cu tur: 5-7 oktyabr; 10-cu tur: 8-10 oktyabr. Çempionatın oyunları Rusiyanın 11 şəhərinin - Moskvaya, Sankt-Peterburq, Kazan, Nijni Novqorod, Saransk, Kalininqrad, Volqoqrad, Yekaterinburq, Samaraya, Soçi və Rostovdakı 12 stadionunda iyunun 15-dən iyulun 14-dək keçiriləcək.

### Kosta-Rika, Panama, Qrenada, Haiti...

29 ölkə qitələrarası seçmə sikllərdən dünya çempionatına vəsiqə qazanacaqlar. Qalan 2 vəsiqə məhz qitələrarası kəsişmənin oyunlarından sonra sahibini tapacaq. Nəticədə Şimali Amerika - Asiya, Okeaniya - Cənubi Amerika cütlüyü formalaşıb.

Afrika zonasında ilk 2 mərhələnin püşkatma mərasimində komandalar bir-biri ilə 3 dövrəlik mürəkkəb olimpiya sistemi ilə cütlüklərə bölünüblər.

Asiya zonasında seçmə mərhələ artıq başladığından, bu qitənin ölkələri üçün püşkatma keçirilməyib. Şimali, Mərkəzi Amerika və Karib hövzəsi ölkələri (KONKAKAF) üçün püşkatma nəticəsində qrupların tərkibi belə formalaşıb:

A qrupu: Meksika, Honduras, Kürasao - Salvador cütünün qalibi, Kanada - Beliz cütünün qalibi,

B qrupu: Kosta-Rika, Panama, Qrenada - Haiti cütünün qalibi, Yamayka - Nikaraqua cütünün qalibi,

C qrupu: ABŞ, Trinidad və Tobaqo, Sent-Vinsent və Qrenadinı - Aruba cütünün qalibi, Antiqua və Barbuda - Qvatemala cütünün qalibi.

Okeaniya zonası üçün də püşk atılıb. Qrupların tərkibi belə müəyyənləşib:

A qrupu: Taiti, Yeni Kaledoniya, ilkin raundun qalibi, Papua-Yeni Qvineya,

B qrupu: Yeni Zelandiya, Solomon Adaları, Fici, Vanuatu

❑ "Yenì Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 161 (6189) 27 iyul 2015



## Alçanın bilmədiyimiz faydaları

Son illərdə aparılan tədqiqatlar alça yeməyin sağlamlığımız üçün nə qədər fayda verdiyini üzə çıxarıb. “Sələf Xəbər” Türkiyə mətbuatına istinadən bildirir ki, bir çox fərqli növü və rəngi olan alça (2000-dən artıq alça növü var) qida lifi baxımından ən zəngin meyvələr arasında yer alır. Antioksidant komponentləri ilə bədəni qoruyan və yüksək miqdarda C vitamini ehtiva edən alça xəstəliklərə qarşı müqavimətimizi artırır. Aşağı kalori dəyəri (100 qram alça, təxminən 45 kalori) alçanın pəhriz siyahılarının əvəzolunmaz meyvələrindən biri olmasını təmin edir. Alça, eyni zamanda, A, K və C vitaminləri üçün olduqca yaxşı bir mənbədir. Bunun digər bir mühüm faydası isə ərzaqlardan alınan dəmir mineralının bədən tərəfindən mənimsənilməsini artıraraq dəmir çatışmazlığına qarşı qoruma təmin etməsidir. Dəmir çatışmazlığı, qan azlığı, ürək ritmi nizamsızlığı, uşaqlarda böyümə problemlərində də bu meyvə faydalıdır. 100 qram alça gündəlik C vitamini ehtiyacının, təxminən16%-ni qarşılayır. Alça yenə tərkibində olan C vitamini sayəsində xolesterolun nəzarət edilməsinə yardımçı olur. Təkbaşına xolesterolu aşağı salmaq üçün kifayət deyil, ancaq oksidə olmuş xolesterolun damar içində toplanmasının qarşısını alaraq infarkt və buna bağlı ürək xəstəliklərindən qorunmağı təmin edən meyvələr arasında sayıla bilər.

# 10 milyardlıq xəzinə tapıldı

Rusiyanın Kalininqrad vilayətində 1-ci Dünya müharibəsi dövründən qalmış milyardlarla Almaniya markası olan xəzinə aşkar edilib. Könüllülər qrupu tərəfindən əvvəlcə metal yeşik tapılıb və sonradan müəyyən olunub ki, içindəki 10 milyardlıq marka əskinasları Veymar Respublikası dövrünə aiddir. Qusev şəhərinin Tarix Muzeyi mütəxəssisləri və administrasiya rəhbərliyinin iştirakı ilə açılan qutuda kağız əskinaslarla yanaşı, metal 50 “pfenniq” qəpiklər, əlyazma məktublar, o cümlədən Almaniya və Şərqi Prussiyanın vətənpərvərlik qəzetləri də olub. Xatırladaq ki, Veymar Demokratik-Burjua Respublikası 1918-ci ildə noyabr inqilabı nəticəsində qurulub və respublika 1919-cu ildən 1933-cü ilədək mövcud olub. Kalininqrad vilayəti isə Rusiyada yeganə yerdir ki, tarixi Şərqi Prussiya ərazisində yerləşir və 1-ci dünya savaşı zamanı burada minlərlə hərbiçi dəfn edilib.



# Dünyanı şoka salan 14 gerçək

1. Afrika və Yaxın Şərqdə hər il 2 milyon gənc qız və qadın sünnət edilir.
2. Keniyada bir ailənin gəlirinin üçdə biri rüşvətə gedir.
3. Dünya əhalisinin 70%-i bu günədək çevrilərək yığılan telefon səsi eşitməyib.
4. Adi bir ingilis gündə təxminən 300 dəfə kameralara yaxalanır.
5. Hər gün dünya əhalisinin yeddidə biri, yəni 800 milyon insan ac qalır.
6. 150-dən çox ölkədə işgəncə var.
7. Dünyanın üçdə biri müharibə şəraitindədir.
8. İntihar edərək ölənlərin sayı, silahlı münaqişələrdə ölənlərdən çoxdur.
9. Bir yapon qadının orta yaş həddi 84 il, bir afrikalıda isə 39 ildir.
10. Afrikada 30 milyon kişi QİÇS daşıyıcısıdır.
11. Hər il 120 min qadın və ya gənc qız Qərbi Avropaya satılır.
12. ABŞ-da hər həftə təxminən 88 şagird sinifə silah gətirir.
13. Dünyada ən az 300 min insan düşüncəsinə görə həbsdədir.
14. Silahlı münaqişələrdə 300 min uşaq əsgər kimi vuruşur.





## Uşaqlar üçün mesaj göndərən kreslo

Amerikada uşaqları daşımaq üçün vasitələr hazırlayan “Evenflo” firması son zamanlarda tez-tez nəzərə çarpan azyaşlı ölümlərinin qarşısını almaq üçün kreslo istehsal edib. Uşaqları maşında unudaraq havasızlıqdan ölümünə səbəb olmaqdan qorumaq üçün nəzərdə tutulan kreslolar maşına yerləşdirilir. Uşaq maşında unudularsa, valideynlərin telefonuna xəbərdarlıq mesajı göndərilir. Qiyməti 150 dollar olan kreslo səyahət amanı uşaq kəmərini çıxararkən də xəbərdarlıq edir.




**QOÇ** - Təxminən saat 14-ə qədər ovqatınızda mənfi çalarlar müşahidə oluna bilər. Bunun üçün həll edə bilmədiyiniz məsələlərə girişməməlisiniz. Sonrakı müddətdə uğurlu sövdələşmələr mümkündür.

**BUĞA** - Ətrafınızda olanları aldatmayın. Əks təqdirdə bunun acısını özünüz çəkəcəksiniz. Sizə xeyirxahlıq edənlərə borclu qalmayın. Nahardan sonra sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Az da olsa, bədxah adamlar tərəfindən sıxıntılara mübtəla ola bilərsiniz. Əgər saat 15-ə qədər özünüzü toplasanız, sonrakı ərəfədə ümumi ovqatınız qənaətbəxş olacaq.

**XƏRÇƏNG** - Yaxşı olar ki, bütün enerjinizi fəaliyyət istiqamətinə yönəldəsiniz. Çünki hansısa danışıqların və ya müzakirələrin uğurlu nəticə verəcəyini ulduzlar təkzib edir.

**ŞİR** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün geniş imkanlarınız olacaq. Müttəfiqlərinizin köməyindən istifadə edin. Göy qübbəsi sizi müdafiə etdiyindən heç bir qanqaraçılığı gözlənilmir.

**QIZ** - Bürcünüz üçün iyulun uğurlu təqvimlərindən biridir. Bir tərəfdən situasiyaların gözlənilmədən xeyrinizə dəyişməsi, digər tərəfdənsə perspektivli təkliflər almağınız ovqatınızı yüksəldəcək.

**TƏRƏZİ** - Yeni əlaqələr yaratmaq, müşkül işlərə aydınlıq gətirmək üçün münasib gündür. Utopik düşüncələrə qapılmaqdansa, reallığa uyğun addım atın. Daxili xofunuzu aradan qaldırın.

**ƏQRƏB** - Astroloji göstəricilər ixtiyarınızda olan bu təqvimdən razı qalacağınızı bəyan edir. Haqqınızda ağız büzənlərin çoxu nəyə qadir olduğunuzu görəcək. Özünüzü fağır göstərməyin.

**OXATAN** - Bu gün fiziki işlərə bir qədər ara verməyiniz lazım gələcək. Çünki rastlaşacağınız uğurlar daha çox işdən kənara təsadüf edəcək. Həlledici məqamlarda məqsədəuyğun qərarlar çıxarın.

**OĞLAQ** - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Sürprizlərə də hazır olun. Ulduzlar bəxtinizə xoş nüanslar bəxş edəcək. Axşam doğma ünvanlarda mehman olmağınız məsləhətdir.

**SUTÖKƏN** - Səhhətinizdə hər şey qaydasındadırsa, bu təqvimdən narazı qalmayacaqsınız. Bu gün aldığınız təkliflər perspektivli olduğundan imtina etməyə tələsməyin. Uğurlu əlaqələr də mümkündür.

**BALIQLAR** - Fərdi fəaliyyətinizdə böyük irəliləyişlərə keçid mərhələsini yaşamaqdasınız. Hər şey çıxardığınız qərarlardan birbaşa asılıdır. Belə məqamlarda kənar məsləhətlər o qədər də səmərəli deyil.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ərini aldadan qadın beysbol yarışında ifşa edildi



Amerikanın Atlanta şəhərində beysbol yarışlarını izləmək üçün Turner Field stadionuna gedən iki bacı ön sırada oturan Delana Hinson adlı qadının ərini aldatdığını ortaya çıxarıb. Hinson adının “Nancy” deyə qeyd etdiyi qadınla yarış boyu mesajlaşıb. Heç bir şeydən xəbəri olmayan kişiyə “arvadın səni aldadır” deyə xəbərdarlıq məktubu yazan bacılar yazışmaların şəklini də Hinsonun ərinə göndəriblər. Üstəlik “arvadının Nancy ilə yazışmalarını oxu. O, qadın deyil, kişidir” deyə də bildiriblər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “E-Q” mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300